www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 mart 2016-cı il Çərşənbə № 62 (6383) Qiyməti 60 qəpik

**Xəbər**

## Yay vaxtına keçid ləğv olundu

yazısı səh.10-da

**Gündəm**

### Bu gün Milli Məclis fövqəladə iclas keçirir



"Nüvə materiallarının fiziki mühafizəsi haqqında" Konvensiyanın ratifikasiyası haqqında qanun layihəsi niyə təcili müzakirəyə çıxarılır?

yazısı səh.8-də

### Rövşən Cavadov ölümünün 21-ci ilində məzarı başında anıldı

yazısı səh.5-də

*Ermənistanda həyəcan:*

### "Rusiya Bakını itirməməkdən ötrü Qarabağı qaytara bilər..."

yazısı səh.11-də

### Türkiyə terror xəbərdarlığı panikasında

yazısı səh.6-da

### Ölkə başçısının iqtisadiyyatla bağlı yol xəritəsi - ekspert şərhləri

yazısı səh.5-də

### Azərbaycan Qafqazda Qərbin əsas müttəfiqinə çevrilir

yazısı səh.9-da

### ABŞ Bakıdakı səfirliyinin mühafizəsini gücləndirdi

yazısı səh.6-da

### Putin Suriya əməliyyatı haqda danışdı və hədələdi

yazısı səh.9-da

### Ölkə böyük tətilə gedir - yenə Gürcüstana...

yazısı səh.10-da

### Akif Çovdarovun məşhur obyektini dağıtdılar

yazısı səh.15-də

### Böyük özəlləşdirmə Novruzdan sonraya qaldı

yazısı səh.12-də

## Məşhur siyasi dustaqlar azadlıqda

# PREZİDENTDƏN HADİSƏ KİMİ ƏFV - MÜXALİFƏT NƏ DEYİR...

Ölkə başçısının imzaladığı sərəncamla 14 nəfər siyasi məhbus, o cümlədən Müsavat Partiyası başqanının iki müavini azadlığa buraxıldı; sərəncam yüksək qiymətləndirilir; Bu, həm də Novruz bayramı ərəfəsi cəmiyyətə verilmiş bir birlik, siyasi opponentlərə xoş niyyət mesajı kimi də dəyərləndirilə bilər



yazısı səh.4-də

## ABŞ-ın prezident Əliyevlə bağlı sensasion planı

Konqres "Azərbaycan Demokratiya Aktı" sanksiya layihəsini "arxivə" göndərir; Pentaqon Ağ Evdən Azərbaycan prezidentinə daha ciddi dəstək verilməsini və etimad göstərilməsini istəyir; Pentaqondakı mənbə: "Qərbin regionda maraqlarını təmin edən siyasi və iqtisadi layihələrə 2016-2017-ci illərdə nəzarət İlham Əliyevə veriləcək"

yazısı səh.8-də



*Yevda Abramov:*

### "Düz demirəmsə, mandatımı təhvil verirəm..."

yazısı səh.7-də



*Canəli Əkbərov:*

### "İndi "pırt" edib çıxanlar əməkdar artist olur"

yazısı səh.13-də



### Rauf Mirqədirov azadlıqda - "Nə şirin sözdür azadlıq"...

yazısı səh.3-də



## Müəllimlərin maaşları artırıldı

**Prezident İlham Əliyev dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında sərəncam imzalayıb.**

Modern.az xəbər verir ki, sərəncama əsasən, "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Azərbaycan Prezidentinin 2015-ci il 16 yanvar tarixli 994 nömrəli sərəncamının 1-ci hissəsinə uyğun olaraq müəyyən edilmiş aylıq vəzifə maaşları 2016-cı il aprelin 1-dən orta hesabla 10 faiz artırılır.

Nazirlər Kabinetinə bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi aparılan dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxemi və məbləğlərini, vəzifə maaşlarına əlavələrin məbləğlərini 2016-cı il aprelin 1-dək təsdiq etmək; Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat vermək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

## AŞ PA prezidenti əfv fərmanını alqışladı

**AŞ PA prezidenti Pedro Aqramunt prezident İlham Əliyevin imzaladığı əfv fərmanını alqışlayıb. P.Aqramuntun bu məsələ ilə bağlı bəyanatında deyilir: "Bu gün Azərbaycanda 148 nəfərin, o cümlədən Vatslav Havel mükafatı laureatı Anar Məmmədlinin, eləcə də bir sıra siyasi fəalların, jurnalistlərin və hüquq müdafiəçilərinin azadlığa çıxması barədə yaxşı xəbər almışam".**

AŞ PA prezidenti bir neçə gün əvvəl Azərbaycana səfəri və rəsmi şəxslərlə görüşlər zamanı bu məsələni müzakirə etdiklərini xatırladıb.

"Mən məhbus məsələsi ilə bağlı Azərbaycan hakimiyyəti ilə işləməyə davam edəcəyəm. 148 nəfərin azadlığa çıxması ilə nəticələnən bu böyük təşəbbüsü alqışlayıram", - bəyanatda deyilir.

## Xüsusi iqtisadi zona yaradılır

**Prezident İlham Əliyev Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Maliyyə Nazirliyi bir ay müddətində bu sərəncamda göstərilən tədbirlərin maliyyələşdirilməsini təmin edəcək.**

Nazirlər Kabinetinə bu sərəncamda göstərilən məsələlərin həyata keçirilməsi məqsədilə zəruri tədbirlər görmək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

## Dolların məzənnəsi 1,60 manatdan aşağı düşdü

**Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarının martın 18-nə rəsmi məzənnəsini 1,5971 AZN/USD səviyyəsində müəyyən edib. Virtualaz.org AMB-nin məlumatına istinadən xəbər verir ki, bu, gündəlik 0,81% azalma deməkdir.**

Qeyd edək ki, martın 16-na rəsmi məzənnə 1,6102 AZN/USD səviyyəsində olub.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# İki qardaşdan biri əfvə düşdü, digəri həbsdə qaldı

### Raqif Kərimli: "Deyirdi ki, qardaşım azad olunsa yaxşı olar"

**Ölkə başçısının imzaladığı sərəncam ölkə gündəmini dəyişdi. İctimaiyyətin diqqət mərkəzində olan siyasi məhbusların əksəriyyətinin əfv siyahısında adlarını görmək mümkündür. Azadlığa çıxacaq siyasilərdən biri də müsavatçı gənc Sirac Kərimlidir. Onun eyni maddə üzrə həbs olunduğu qardaşı, Müsavat başqanının müavini Fərəc Kərimli yenə də həbsdə qaldı...**



Kərimlilər ailəsi həm sevinir, həm də kədərlənir. İki övlad atası olan oğlunu sabah azadlıqda görəcək Raqif Kərimli, digər oğlunun hələ də intizarla azadlığa çıxacağı günü gözləyəcək. Müsavat.com-a açıqlamasında Raqif Kərimli bunları dedi: "Hər iki oğlumun azad olunmasını çox istərdim. Amma Siracın iki azyaşlı övladı var. Çox sevinməsək də, sevinc hisslərimizin olmadığını desəm düzgün olmaz. Siracın uşaqları, anası, mən və digər qohumlar böyük sevinc içərisindəyik. Əfvdən sonra Siracın özü zəng etdi. O da çox sevinir. Amma Fərəc həbsdə qaldı, nə etmək olar. Gözlərim sözsüz ki, əfv siyahısında Fərəci də axtardı. Bu dəfə hakimiyyətin davranışları əvvəlki kimi deyildi. Böyük ümidlərimiz var idi. Mənə elə gəlirdi ki, bütün siyasilər azad olunacaqlar. Proseslər buna ümid etməyə əsas verirdi. Yenə də çoxsaylı siyasi məhbuslar həbsdə qaldılar. Onların hamısının azad olunması daha yaxşı olardı. Fərəc zəng etmişdi. O da çox sevinir. Bizə göz aydınlığı verdi. O, hər görüşdə deyirdi ki, qardaşım azad olunsa yaxşı olar. Bu onun arzusu idi. Elə çıxmasın ki, övladlarıma fərq qoyuram. Amma Siracın övladlarına görə onun azadlığı xəbəri bizi çox sevindirdi. Onun övladlarının hərəkətləri bizə də, özünə də ağır təsir edirdi. Atasızlığı Allah heç kəsə qismət eləməsin. Hər övlad valideynlərinin yanında olmasını istəyir".

**❑ Cavanşir ABBASLI**

## Jurnalistlər mükafatlandırıldı

**Martın 17-də Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Novruz bayramı münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıb.**

"Trend"in məlumatına görə, tədbirdə Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, mətbuat orqanlarının rəhbərləri, millət vəkilləri və digər qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan V.Səfərli bildirib ki, müsabiqə 2016-cı il yanvarın 28-dən martın 4-dək Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 15 istiqamət üzrə keçirilib.

Müsabiqəyə 62 kütləvi informasiya vasitəsindən 155 yazının təqdim edildiyini diqqətə çatdıran V.Səfərli yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini vurğulayıb.

Onun sözlərinə görə, 15 istiqamətin hər biri üzrə 6 yazı müəllifi qalib elan edilib, ümumilikdə 90 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub. Müsabiqənin şərtlərinə əsasən, hər istiqamət üzrə I yerin qaliblərinə 500, II yerlər üçün 400, III yerlər üçün isə 300 manat mükafat verilib.

**Qeyd edək ki, qaliblər sırasında "Yeni Müsavat"ın əməkdaşı Elşad Paşasoy da var.**



## PA rəsmisinin iştirakı ilə QHT-lərin xarici əlaqələri müzakirə edildi

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında xarici QHT-lər və onların qurduğu koalisiyalarla tərəfdaşlıq münasibətləri olan, birgə layihələr icra etmiş QHT-lərlə görüş keçirilib.**

Toplantıda çıxış edən şura sədri, millət vəkili Azay Quliyev rəhbərlik etdiyi qurumun Azərbaycanın milli maraqlarının beynəlxalq aləmdə təbliği üçün 2013-cü ildən etibarən xarici QHT-lərin çoxsaylı layihələrini maliyyələşdirdiyini deyib. Müasir dünyada vətəndaş cəmiyyəti institutlarının artan rolunun əhəmiyyətini vurğulayan Azay Quliyev ölkə QHT-lərinin beynəlxalq platformalarda fəaliyyətlərini gücləndirmələrinin vacibliyini qeyd edib.

Prezident Adminstrasiyası xarici əlaqələr şöbəsinin müdir müavini Ərəstü Həbibəyli bu günki görüşün milli QHT-lərin xarici tərəfdaşları ilə münasibətlərini, resurslarını və ideyalarını müzakirə etmək məqsədi daşıdığını bildirib. Ərəstü Həbibbəyli müasir dünyada beyin mərkəzlərinin, QHT-lərin "yumşaq güc"ün əsas elementlərindən biri olduğunu və bu imkandan səmərəli istifadə etmənin dövlətimizin qarşısında dayanan vəzifələrdən biri olduğunu deyib.

QHT rəhbərləri Faiq İsmayılov, Umud Rəhimoğlu, Asif Əsgərli, Nazim Əhmədli, Azər Həsrət, Araz Aslanlı, Çingiz Bayramov, Məzahir Əfəndiyev, Sevil Yusifova, Şəhla Nağıyeva, Nərgiz Xələf, İsmayıl Ağayev, Mirhəsən Həsənov, Rauf Zeyni və digərləri xarici QHT-lərlə əlaqələri və üzv olduqları koalisiyalardakı fəaliyyətləri haqqında danışıblar.

**Görüşün sonunda QHT rəhbərlərinin səsləndirdiyi təkliflərin ümumiləşdiriləcəyi və xarici QHT-lərlə əməkdaşlıq təcrübəsinə malik milli QHT-lərin platformasının yaradılacağı qeyd edilib.**

## Azərbaycan içki idxalını 3 dəfə azaltdı

**Bu ilin yanvar-fevral ayları ərzində Azərbaycandan spirtli içkilərin ixracında mənfi illik dinamika müşahidə edilib. Dövlət Gömrük Komitəsindən "Report"-a istinadən bildirir ki, 2016-cı ilin ilk iki ayında 1 984,14 min ABŞ dolları dəyərində spirtli və spirtsiz içki ixrac edilib ki, bu da 2015-ci ilin müvafiq dövründə nisbətən 652,19 min dollar, yaxud 24,74% azdır.**

Hesabat dövründə spirtli və spirtsiz içkilər ümumi ixracın 0,16%-ni təşkil edib.

Komitədən bildirilib ki, təhlil olunan dövr ərzində Azərbaycana ümumilikdə 3 097,71 min dollar məbləğində spirtli və spirtsiz içkilər, həmçinin sirkə idxal edilib. Bu isə 2015-cü il ilə müqayisədə 5 956,51 min dollar və ya 65,79% yaxud 2,92 dəfə azdır. Nəticədə, bu məhsulların ölkənin ümumi idxalında payı 0,32% təşkil edib.



## Mədət Quliyevin müavini general-mayor oldu

**Prezident İlham Əliyev İsmayıl Bağırova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) rəisinin müavini İsmayıl Məmmədəli oğlu Bağırova general-mayor ali hərbi rütbəsi verilsin.

Qeyd edək ki, DTX rəisi Mədət Quliyevdir.

## İntihara cəhd edən MSN əməkdaşı redaksiyamıza məktub yolladı

### Orxan Ağazadə: "Mənim idarə rəisi və işlədiyim komanda rəhbərliyi ilə..."

**Ötən saylarımızdan birində "Nazirliyin idarə rəisi özünü körpüdən atmaq istədi" sərlövhəli xəbər dərc etmişdik. Redaksiyamıza daxil olan məlumatda deyilirdi ki, Müdafiə Sənayesi Nazirliyinin təhlükəsizlik idarəsinin rəisi Orxan Ağazadə intihara cəhd edib.**

Martın 3-dən 4-nə keçən gecə Cavanşir körpüsünün üstünə çıxan idarə rəisi oradan özünü atmaq istəyib. O.Ağazadəyə ərazidən keçən polis əməkdaşları mane ola biliblər. Saxlanılan idarə rəisi polisə aparılıb. Olayın hansı səbəbdən baş verdiyi araşdırılır. Məsələyə aydınlıq gətirmək üçün MSN-lə əlaqə saxlamaq cəhdlərimiz baş tutmamışdı.

Redaksiyamıza xəbərdə adı keçən Orxan Ağazadə məktubla müraciət edib. O.Ağazadə məktubunda bildirir ki, o, 2013-cü ilin martından MSN-in Təhlükəsizlik və Mühafizə İdarəsində mühafizəçi vəzifəsində çalışıb. Heç vaxt MSN-də idarə rəisi postunu tutmayıb. Məktubunda O.Ağazadə hansı səbəbdən intihara cəhd etdiyini açıqlamayıb. O.Ağazadə məktubunda MSN rəsmiləri ilə probleminin olmadığını da vurğulayıb: "Mənim idarə rəisi və işlədiyim komanda rəhbərliyi ilə heç bir problemim yoxdur, olmayıb".

**❑ E.HÜSEYNOV**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

**"Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirov martın 17-də azadlığa buraxıldı. Dövlətə xəyanətdə ittiham olunan jurnalistin 6 illik cəzası 5 il şərti cəza ilə əvəzləndi. Eyni maddə üzrə ittiham olunduğu Leyla və Arif Yunusların azad edilməsindən Mirqədirovun da həbsxana həyatı ilə vidalaşması ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.**





# Rauf Mirqədirov azadlıqda - "Nə şirin sözdür azadlıq"...

## Jurnalistin cəzası şərti cəza ilə əvəzləndi; ictimaiyyət tərəfindən məhkəmə qərarı rəğbətlə qarşılandı

Azadlığa buraxılan jurnalist ilk olaraq, məhbəsdə olarkən rəhmətə gedən atasının qəbrini ziyarət etdi. İlk təəssüratlarını almaq üçün Mirqədirovun evinə yollandıq. Bayramqabağı Mirqədirovlar ailəsində sözün həqiqi mənasında bayram əhval-ruhiyyəsi yaranmışdı. Hər kəsin üzündə sevinc göz yaşları var idi. Jurnalistlə görüşmək üçün gələn həmkarlarının, yaxınlarının ard-arası kəsilmirdi.

**İlk olaraq, 23 aydır oğlunun yolunu həsrətlə gözləyən Mirqədirovun anası Rəfiqə İsayevə ilə söhbət edirik. Sevinc göz yaşları ilə Rəfiqə xanım keçirdiyi hissləri bizə belə anlatdı:** "İki ildir ki, gözlədiyim qərar, nəhayət, verildi. Hər kəsə təşəkkür edirəm. Prezident Aparatına, hüquq orqanlarına və İşçi Qrupuna təşəkkür edirəm. Şükürlər olsun ki, ədalət bərpa olundu. Yanımızda olan mətbuat orqanlarına da təşəkkür edirəm. Çünki daim yanımızda oldular. Sizləri məhkəmələrdə ətrafımda görəndə elə bilirdim ki, Rauf da sizin aranızdadır. Bütün valideynlər öz övladlarının azadlıqda olmasını istəyir. Nə qədər sevindiyimi ifadə edə bilmirəm. Çox sevincliyəm. Allahdan bütün valideynlərə övladlarının sevincini yaşamasını arzu edirəm. Oğlumun məhkəməsinin başlamasını 19 ay gözlədim. Bu müddətdə nə hisslər keçirmişəm, ifadə etməkdə çətinlik çəkirəm. Hər məhkəməsində şok qərar gözləyirdim. Artıq hər şey arxada qaldı. Ana daim övladı ilə birlikdə qalmaq istəyər. Hazırda sevincimin həddi-hüdudu yoxdur. Bütün valideynlər istəyirlər ki, övladlarına zərrə qədər zərər gəlməsin".

### Anası Rəfiqə xanım: "Sevincimin həddi-hüdudu yoxdur"

**Anasının duyğusal fikirlərindən sonra azadlığa çıxan Rauf bəyin fikirlərini aldıq. O, azadlıq sözünün ən şirin söz olduğunu söylədi:** "Nə şirin sözdür azadlıq" adlı film var. Latın Amerikasında demokratların taleyi ilə bağlı çəkilmişdi. Mənim üçün azadlıq insanlardır. Mənim sevdiyim insanlardır. İnsan həbsxanada olanda sevənlərinin verdiyi dəyəri, sənin onlara verdiyin dəyəri daha aydın görürsən. Balaca qızım həbs olunduğum vaxt 5 yaşında idi. İndi 7 yaşa keçib. O, yoldaşıma deyib ki, gedək Bakıya, həbsxanaya hücum edək, atamızı xilas edək. Ən azından bu məhəbbətə görə yaşamağa dəyər. Jurnalistikada insan yaşayır. Peşəkar jurnalistlər işlə daha çox məşğul olurlar, nəinki ailə ilə. Ailəni gündə 2-3 saat ancaq görürsən. Çünki evə hamı yatanda gəlirsən, gedəndə də hamı yatmış olur. Bu həyat tərzidir. İnsanı daxilən dəyişdirir. Həyatın dəyərini başqa insanların taleyi ilə anlaya bilirsən. Mənim həyat tərzim də budur".

**Artıq keçmiş məhbus olan Mirqədirov hələ də günahının nədən ibarət olduğunu anlamadığını söylədi:** "Sadəcə, ehtimalımız var. Düşünürük ki, Azərbaycana düşmən olan xarici xidmət orqanlarının qurduğu planın bunlar tərkib hissəsidir. Söhbət burada tək mənim həbsimdən getmir. Təəssüflər olsun ki, bu qurğuya Azərbaycanın xüsusi xidmət orqanları da düşdülər. Heç kimin vətənpərvərliyini şübhə altına almıram. Mənim günahsız olduğuma inananlar varsa, özümü suçsuz bilirəmsə, başqalarının nədəsə ittiham edə bilmərəm. Amma bunlar baş verdi. Bu proseslər çərçivəsində "Zerkalo" qəzetinin bu və ya digər səbəblərdən fəaliyyətinə son qoyuldu. Bu bir göstəricidir. Qəzetimiz xarici siyasətə hədəflənmişdi. Özümü günahsız sayıram. İttiham tərəfi bir sübut belə gətirə bilmədi. Gətirə də bilməzdilər. Heç bir xarici xüsusi xidmət orqanı ilə əlaqəm olmayıb. Azadlığa çıxmağımı tam qələbə hesab etmirəm. Düzdür, çox şadam ki azadlıqdayam. Bu da böyük uğurdur. Amma tam qələbə ola bilməz. Çünki bəraət hökmü yoxdur. Vəkillərimlə birlikdə bəraət üçün mübarizə aparacam".

**Mirqədirov azadlığa çıxacağına azacıq da olsa əvvəlcədən inandığını qeyd etdi:** "Çalışmışam ki, həmkarlarımla daim səmimi olum. Əgər desəm ki, ehtimal etmirdim, bu yalan olar. Bir sıra səbəblər var idi. Bildiyiniz kimi, Ağır Cinayətlər Məhkəməsi maddənin ağırlığına baxmayaraq, "yüngül cəza" verdi. Həmin maddə üzrə 15 ildən ömürlüyə qədər cəza nəzərdə tutulurdu. Bunlar göstərici idi ki, bu məsələ ilə bağlı ən azından fərqli mövqelər var. Pozitiv idi ki, taleyimizi həll edənlər arasında taleyimizi düşünən insanlar var. Digər səbəb isə mənimlə eyni maddə üzrə həbs edilən şəxslərin azadlığa buraxılması idi. Buna görə də azadlığa çıxacağımı istisna etmirdim. Bizi məhkəməyə aparan "konvoy"lar məhbuslardan maddələrini soruşurlar. "Konvoy" məni məhkəməyə aparanda məndən soruşdu ki, maddən nədir? Dedim ki, dövlətə xəyanət... Soruşdu ki, dövlət qulluqçususan? Dedim xeyr, jurnalistəm. "Konvoy" dedi ki, "jurnalist hara, vətən xaini hara?.." Orta səviyyəli insanın problemə baxışı budur. Kimsə 23 ay təkadamlıq kameradan çıxıb desə ki, bu qazancdır, inanmayın. İnanırdım ki, ən pis halda 5-6 il həbsdə qalacam. Bizdə bir ənənə yaranıb. Həbs edirlər, sonra 3-4 il sonda müxtəlif yollarla azad edirlər. Əslində barəmdə bəraət hökmünün oxunmamasının bəsit bir səbəbi var, sovet keçmişimizlə bağlıdır. O zaman hesab olunurdu ki, günahsız insan həbs oluna bilməz. Sınaq müddətinin verilməsinin də səbəbləri var. Hər kəs günahsız olduğumu bilir. Anarın "Evləri köndələn yar" əsəri gələcək fəaliyyətimlə bağlı yadıma düşdü. Həmin əsərdə qəhrəmanlardan biri deyir ki, atamın çörəyi Allahdan çıxır. 30 ilə yaxındır jurnalistika ilə məşğul olmuşam. Çörəyim bundan çıxır. Sözsüz ki, bir qədər istirahət edib, yenə fəaliyyətimlə məşğul olacam. Sınaq müddəti fəaliyyətimə qadağa qoymur".



### Rauf Mirqədirov: "Yenə jurnalist fəaliyyətimlə məşğul olacağam"

**Jurnalist həbsdə olduğu müddətdə ictimaiyyətin diqqətində qaldığından da söz açdı:** "Hər şey müqayisədə bəlli olur. Bəlkə də 10 il əvvəl həbsdə olsaydım, göstərilən diqqətdən razı qalmazdım. Amma bugünkü vəziyyəti başa düşdüyüm üçün razıyam. Məni dəstəkləyən ailə üzvlərim, həmkarlarım, dostlarım, burada olan baş redaktorum Elçin Şıxlı, "Yeni Müsavat" qəzeti, hətta ANS kanalı və digər mətbuat orqanları və jurnalistlərə təşəkkür edirəm. Bütün adları sadalaya bilmirəm. Hüquq müdafiəçilərinə minnətdaram. Mümkün olanından artığını etdilər. İndiki vəziyyəti 10 il əvvəlki vəziyyətlə müqayisə etmək olmaz. Bu dəstək olmasaydı, mənim üçün ağır olardı. Elə məsələlər var ki, bizi ayıran həddi olmamalıdır. Tarixdə olub ki, ortaq dil tapmaq üçün bəzən cinayətkar aləmlə danışıqlar aparılıb. Düşünürəm ki, Dağlıq Qarabağ məsələsi, ərazi bütövlüyümüz kimi mövzularda ortaq dil tapmalıyıq. Siyasi baxışlarımız burada rol oynamır. Oğrudan tutmuş, ən yüksək vəzifəli şəxsə kimi hamı bir yerdə olmalıdır. Milləti millət kimi formalaşdıran vətən anlayışıdır. Bu mövzularda mən yenə yazılarımı yazacam. Söhbət Ermənistandakı konfranslarda iştirak etməkdən getsə, bu haqda fikirləşəcəm (Gülür). Sözsüz ki, xarici konfranslarda yenə də imkan daxilində iştirak edib, ölkəmi təmsil edəcəm. Rusiyanı tənqid etdiyim üçün hədəfə gəldiyimi istisna etmirəm. Bu məsələdə əminlik ifadə etmək çox çətindir. Çünki faktlar yoxdur. Gəldiyimiz təhlillərdən çıxış edirik. Mən qurulan planın kiçik tərkib hissəsi idim".

**Mirqədirov xaricdə olan ailəsinin yanına getməyi düşündüyünü də söylədi:** "Yəqin ki, onlar gəlməyəcək, mən getməyi düşünürəm. Məhz fəaliyyətimə görə bir neçə dildə orta təhsil almağa məcbur olublar. Ortancıl qızım 3-4 dildə oxumalı olub. Kiçik qızım indi məktəbə gedəcək. Bunları dəyişmək çox çətindir. Düşünürəm ki, o mühit daha yaxşıdır".

**Rauf bəy sonda həbsdə olarkən bağlanan "Zerkalo" qəzetinin taleyinə də toxundu**: "Bu qəzet qeyd etdiyim planın tərkib hissəsi idi. İstintaqla bağlı bəzi məsələlər var ki, açıqlamaq düzgün deyil. Amma prokurorluğun mətbuata verdiyi açıqlamaları, mənə qarşı başlanan əməliyyatlara diqqət yetirin, hər şey ortaya çıxacaq. Məqsəd mən deyildim, sadəcə, planın tərkib hissəsi idim. Yerimə başqası da ola bilərdi. Sadəcə, yazıların çoxunu mən yazırdım. Xarici dövlətlərin Azərbaycanla bağlı siyasətlərinin təhlili ilə məşğul idim. Bundan sonra fəaliyyətimi harada davam etdirməyim önəm daşımır. Hər şey harada yaşamağımdan asılı olacaq. 3 il yarım Türkiyədə yaşadım və "Zerkalo"ya yazıların göndərdim. Çoxları düşünürdü ki, Azərbaycandan həmin yazıları yazıram. Sözsüz ki, fəaliyyətim Azərbaycanla bağlı olacaq".

**"Ayna Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı**nın da əməkdaşının azadlığa buraxılması ilə bağlı fikirlərini aldıq: "Biz də məntiqdən kənar çox hərəkətlər olur. Buna görə də, tam əmin deyildim. Martın 16-dakı məhkəmədən sonra qərarın bir gün sonraya salınması mən də ümid yaratdı. Çox şadam. Son iki ildə belə sevindiyim olmayıb. Anası Rəfiqə xanım çox sevinir. Onun üzü nəhayət, gülür. Çiynimizdən böyük yük götürüldü. Bu aylar onun ömründən getdi. Kimsə deyə bilər ki, bu təcrübədir. Bir dostum əsgərlikdə var idi. O bir cümlə demişdi ki, əsgərliyin həyat məktəbi olduğunu deyirlər, mən də buna əminəm, amma belə məktəbi keçməsək, daha yaxşı olar. Bu baxımdan Raufun timsalında deyirəm, belə məktəb bizə lazım deyil".

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

# Məşhur siyasi dustaqlar azadlıqda

**Prezident İlham Əliyev martın 16-da əfv fərmanı imzalayıb. Ölkə başçısının imzaladığı sərəncamla 137 nəfər azadlığa buraxılıb. Həmçinin 6 nəfər islah işləri cəzasının çəkilməmiş hissəsindən, 5 nəfər cərimə cəzasından azad edilib. Əfv sərəncamı ilə 14 nəfər siyasi məhbus da azad edilib.**



**Azad edilən siyasi məhbuslar bunlardır:**

*Tofiq Yaqublu - Müsavat başqanının müavini*
*Anar Məmmədli - Hüquq müdafiəçisi*
*Rəsul Cəfərov - Hüquq müdafiəçisi*
*Yadigar Sadıqov - Müsavat başqanının müavini*
*Pərviz Həşimli - Jurnalist*
*Hilal Məmmədov -Hüquq müdafiəçisi*
*Taleh Xasməmmədov - Hüquq müdafiəçisi*
*Nemət Pənahlı - MDP sədri*
*Sirac Kərimov - Müsavat fəalı*
*Rəşadət Axundov - NİDA-çı*
*Rəşad Həsənov -NİDA-çı*
*Məmməd Əzizov -NİDA-çı*
*Ömər Məmmədov -NİDA-çı*
*Akif Muradverdiyev - Prezident Aparatının keçmiş işlər müdiri.*

Hüquq müdafiəçilərinin, beynəlxalq hüquq müdafiə qurumlarının "siyasi məhbus" siyahısına daxil etdikləri REAL sədri İlqar Məmmədovun, hüquqşünas İntiqam Əliyevin və jurnalist Xədicə İsmayılın adları əfv fərmanına salınmayıb.

# Prezidentdən hadisə kimi əfv - müxalifət nə deyir...

## Ölkə başçısının imzaladığı sərəncamla 14 nəfər siyasi məhbus, o cümlədən Müsavat Partiyası başqanının iki müavini azadlığa buraxıldı; sərəncam yüksək qiymətləndirilir; Bu, həm də Novruz bayramı ərəfəsi cəmiyyətə verilmiş bir birlik, siyasi opponentlərə xoş niyyət mesajı kimi də dəyərləndirilə bilər...

### Pərviz Həşimlinin atası prezidentə təşəkkür etdi

"Oğlumu əfv fərmani ilə azadlığa buraxdığı üçün cənab prezident İlham Əliyevə təşəkkür edirəm". Bu sözləri **Pərviz Həşimlinin atası Kamran Həşimli** bildirib. Kamran Həşimli oğlunun həbs səbəblərindən də danışaraq bu hadisənin keçmiş MTN rəhbərliyi tərəfindən həyata keçirildiyini deyib. "Mənim oğlumu MTN-in keçmiş rəhbəri Eldar Mahmudov və onun əlaltıları Akif Çovdarovla İlqar Əliyev qanunsuz olaraq həbs etmişdilər. Mən bu haqda cənab prezidentə müraciət məktubu da göndərmişdim. Sağ olsun cənab prezidentimiz bütün bunları dəyərləndirərək Pərviz Həşimlini əfv sərəncamı ilə azadlığa buraxdı. Mən öz adımdan və ailəmiz adından cənab prezidentə təşəkkür edirəm". Qeyd edək ki, Pərviz Həşimli 2013-cü il sentyabrın 17-də ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi əməkdaşları tərəfindən saxlanılıb. Bakı Ağır Cinayətlər Məhkəməsi onu qanunsuz olaraq odlu silah əldə etmə, saxlama, satmada və qaçaqmalçılıqda təqsirli bilərək 8 il müddətinə azadlıqdan məhrum edib.

### Tofiq Yaqublunun qızı: "İllərdir bu günü gözləyirdik..."

**T.Yaqublunun qızı Nigar Yaqublu** musavat.com-a sevinc hisslərini belə izah edib: "İllərdir ki, bu günü gözləyirdik. Nəhayət, atamı azadlıqda görə biləcəyik. Əfv sərəncamı haqqında mətbuatdan xəbər aldım. Sevincimdən evə gələndə yolda yıxıldım". **Tofiq Yaqublunun oğlu Rəhim Yaqublu** atasının əfvinin onun üçün gözlənilməz olduğunu deyib: "Avtobusla evə gəlirdim. Dostum zəng elədi dedi ki, əfv sərəncamı verilib. Çox sevindim. Düzü, bu, mənim üçün gözlənilməz oldu".

Müsavat başqanının müavini, "Yeni Müsavat" qəzetinin köşə yazarı Tofiq Yaqublu 2013-cü ilin fevralında İsmayıllı rayonunda baş vermiş etirazlardan sonra həbs olunub. O, kütləvi iğtişaşlara çağırma və hakimiyyət nümayəndələrinə müqavimət göstərməkdə ittiham olunub. 2014-cü ildə Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib.

### Nemət Pənahlının xanımı: "Bu dəfə gözləmirdik"

"O qədər ümidli olduğumuz vaxtlar olub ki... Bu dəfə gözləmirdik ki, azadlığa buraxılacaq". Bu sözləri virtualaz.org saytına açıqlamasında **Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı** deyib.

"Jurnalistlərdən eşitdim ki, əfv olunanlar siyahısına Nemət da düşüb. O dəqiqə evə zəng edib xəbər elədim. O qədər həyəcanlıyam ki, heç bilmirəm nə danışım. Təbii ki, biz də, uşaqlar da çox sevinirik", - deyə Həcər Pənahlı vurğulayıb.

Nemət Pənahlı 2011-ci il iyunun 17-də Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəlləsinin 221.3-cü *(silahdan və ya silah qismində istifadə edilən əşyaların tətbiq etməklə xuliqanlıq və qəsdən sağlamlığa az ağır zərər vurma)* maddəsi ilə təqsirli bilinirdi.

### "Xədicəni gözləmirdim..."

"Xədicənin çıxacağını gözləmirdim. Ancaq Tofiq Yaqublunun, Anar Məmmədlinin, digər siyasi məhbuslarınazad olunmasına çox şadam. Allah o biriləri də tezliklə çıxartsın".

Bunu AzadlqRadiosuna əfv edilməyən araşdırmaçı **jurnalist Xədicə İsmayılın anası Elmira İsmayılova** deyib:

"Nə Xədicənin, nə İntiqamın, nə İlqarın, nə də Seymurun tezliklə çıxacağına inanmıram. Ancaq hər halda nə vaxtsa o da olacaq".

### Hüquq müdafiəçiləri əfvi yüksək qiymətləndirir

"Prezident İnsan Haqları üzrə Birgə İşçi Qrupun təqdim etdiyi 22 nəfərlik siyahıda yer alanlardan 14 nəfəri azadlığa buraxıb". **Hüquq müdafiəçisi, işçi qrupun üzvü Səidə Qocamanlı** əfv sərəncamını modern.az-a şərh edərkən belə deyib. O bildirib ki, Rauf Mirqədirov da siyahıya əlavə edilsə, işçi qrupun tərtib etdiyi siyahıdan 15 nəfər azadlığa qovuşub. S.Qocamanlı əfv sərəncamını yüksək qiymətləndirdiyini deyib.

"Əfvdə təqdim etdiyimiz şəxslərin yarısından çoxunun adını görməyi çox yüksək qiymətləndiririk".

Bunu AzadlıqRadiosuna **hüquq müdafiəçisi Səadət Bənənyarlı** deyib. Hüquq müdafiəçisi həbsdə qalan digər ictimai fəalların azad olunması üçün də əllərindən gələni edəcəklərini bildirib: "Çox istərdik ki, azadlığa çıxmayan İlqar Məmmədov, İntiqam Əliyev və başqaları da tezliklə buraxılsın. Bunun üçün əlimizdən gələni edəcəyik".

### Müxalifət də məmnunudur

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirib ki, Novruz bayramı ərəfəsi belə bir əfv fərmanının verilməsi müsbət haldır və bu təbii ki, ilk növbədə günahsız olaraq həbsdə yatan insanlar, eyni zamanda onların ailələri üçün bayram hədiyyəsidir: "Bayram ərəfəsi belə bir hadisənin baş verməsi bütünlüklə Azərbaycanda ciddi qarşılanacaq. Hesab edirəm ki, siyasi məhbusların azadlığa buraxılması yalnız onların ailələri, yaxınları, təmsil etdikləri təşkilatlar üçün yox, bütövlükdə Azərbaycan cəmiyyəti üçün önəmli hadisədir. İstərdik ki, bütövlükdə ölkədə siyasi məhbus problemi birdəfəlik həll olunsun. Həm siyasi məhbuslar azadlığa çıxsın, eyni zamanda siyasi motivlərlə həbslərə son qoyulsun. Bu gün Müsavat Partiyası başqanının iki müavini azadlığa çıxdı. Eyni zamanda, Müsavat Partiyasının fəalları Sirac Kərimli və Taleh Xasməmmədov azadlığa çıxıb. Eyni zamanda, Nida Vətəndaş Hərəkatı nümayəndələri, hüquq müdafiəçiləri, jurnalistlər, digər partiyaların nümayəndələrinin azadlığa çıxması Azərbaycan üçün önəmli hadisədir. Biz yəqin ki, yaxın günlərdə siyasi məhbuslarla və onların ailələri ilə görüşüb onlara bu bayram ərəfəsində göz aydınlığı verəcəyik. Hakimiyyətdən isə istəyimiz ondan ibarətdir ki, ölkədə siyasi məhbus problemini bütövlükdə həll etsin".

**AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a açıqlamasında bir qrup siyasi məhbusun azadlığa çıxmasının sevindirici hadisə olduğunu bildirdi: "Bu, sevindiricidir. Siyasi məhbus siyahısında olan digər şəxslərin həbsdə qalması isə əlbəttə ki, məyusluq yaradır. Onların da Allah qapısını açsın".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** prezidentin siyasi məhbusları azad etməsini pozitiv hadisə hesab etdiyini dedi: "Amma Xədicə İsmayılovanın və İlqar Məmmədovun azad olunmaması bir qədər üzücüdür. Allah qalanların da qapısını açsın".

### Ölkə gündəmi dərhal dəyişdi

Prezidentin imzaladığı əfv fərmanı dərhal ölkənin gündəmi ilə bərabər, əhval-ruhiyyəsini də dəyişib, xüsusən siyasi motivlərlə həbsdə olan tanınmış dustaqların əksəriyyətinin azadlığa qovuşması siyasi mövqeyindən asılı olmayaraq hamıda- həmçinin yüzlərlə məhbus ailəsində sevinc hissi yaradıb. Prezident İlham Əliyev indiyədək bir çox siyasi məhbusu azadlığa buraxsa da, zənnimizcə, ilk dəfədir ki, siyasi mövqeli şəxslər daha geniş sayda azadlığa çıxır. Şübhəsiz ki, bu fərman ciddi beynəlxalq reaksiya da doğuracaq, dövlət başçısının addımını Avropa Birliyi, AŞ PA, Avropa Parlamenti, eləcə də ABŞ Dövlət Departamenti yüksək qiymətləndirəcək. Bu, həm də Novruz bayramı ərəfəsi cəmiyyətə verilmiş bir birlik, siyasi opponentlərə xoş niyyət mesajı kimi də dəyərləndirilə bilər.

Son aylar Azərbaycan hakimiyyətinin Qərblə münasibətlərində nəzərəçarpacaq dərəcədə istiləşmə və hərəkətlilik müşahidə olunmasının siyasi məhbuslarla bağlı problemə müsbət təsir edəcəyi gözlənilən idi. Bakıda TAP və TANAP layihəsinə dair mühüm tədbirdə Qərbin Azərbaycana tam dəstək verməsi, ABŞ Dövlət Departament rəsmisinin, AŞ PA prezidentinin və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinin son səfərləri iqtidarın Qərblə münasibətlərdə yeni bir səhifə açdığını göstərir. Həm AŞ PA prezidenti Pedro Aqramutun, həm də Avropa Komissiyasının vitse-prezidenti Federika Mogerinin bir neçə gün əvvəl hakimiyyətlə apardığı müzakirələrdə əsas mövzunun insan hüquqları ilə bağlı olduğu açıqlanmışdı. AŞ PA sədri Pedro Aqramutun səfərinin yekunları ilə bağlı mətbuat konfransında "Azərbaycan dönüş mərhələsindədir və bu, ölkənin Avropa və Avropa Şurası ilə münasibətlərini yaxşılaşdırmasına imkan verəcək. Mənim yüksək səviyyədə apardığım danışıqlar Azərbaycanda dəyişiklikləri hiss etməyə imkan verdi" deməsi də dustaqlar məsələsində xoş xəbərin müjdəçisi hesab olunurdu. Doğrudur, Aqramutun görüşdüyü REAL sədri İlqar Məmmədov həbsdən buraxılmadı. Amma AŞ PA prezidentinin İlqar Məmmədovla bağlı dedikləri REAL sədrinin də azadlığa buraxılacağını, amma bunun məhkəmə yolu ilə olacağı kimi yozulur.

Məlumdur ki, ötən ilin oktyabrında Ali Məhkəmə həm T.Yaqublunun, həm də İlqar Məmmədovun kassasiya şikayətinə baxaraq işi təkrar baxılmaq üçün Şəki Apelyasiya Məhkəməsinə göndərib. Gözlənilir ki, REAL sədri də Şəki Apelyasiya Məhkəməsində yaxın vaxtlarda keçiriləcək məhkəmənin qərarı ilə azadlığa buraxılacaq.

**İ.Məmmədov və T.Yaqublu 2013-cü ilin yanvarında İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunaraq 7 və 5 il müddətinə azadlıqdan məhrum ediliblər.**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

**Prezident İlham Əliyev “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında sərəncam imzalayıb. Yol xəritəsinin 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasının və tədbirlər planının layihəsini, 2025-ci ilədək dövr üçün uzunmüddətli baxışın layihəsini, 2025-ci ildən sonrakı dövrə hədəf baxışın layihəsini əhatə etməsi müəyyənləşdirilib.**

# İqtisadiyyatla bağlı “yol xəritəsi” - ekspertlərin gözləntiləri nə deyir?

Ölkə başçısının sərəncamını qiymətləndirən **Milli Məclisin İqtisadi siyasət Komitəsinin üzvü Vahid Əhmədov** bunu çox önəmli sənəd hesab edir: “Orada əsasən Azərbaycanın iqtisadi inkişafının modeli, yol xəritəsi çəkilib. 2016-cı il, sonra 2016-2020-ci il, sonra 2020-2025-ci il və ondan sonrakı illər üçün tapşırıqlar verilib. 8 prioritet sahə müəyyən edilib. Bundan birincisi neft-qazdır, sonra kənd təsərrüfatının emalı, ağır sənaye və maşınqayırma, turizm və digər sahələr müəyyən edilib və hansı işlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Çox mükəmməl bir sənəddir. Lakin bu sənədin üzərində çox ciddi iş tələb olunur. Çünki bu sənədin qəbul edilməsi kifayət etmir, onun həyata keçirilməsi üçün çox ciddi işlərin görülməsi tələb olunur”.

**Proqramın qəbul edilməsi üçün müddətin uzadılmasına gəlincə, Vahid Əhmədov bildirdi ki, bu proqramı tez də qəbul etmək olmaz:** “Amma 2016-cı il üçün qısa müddətdə qəbul etmək lazımdır. Bu da sərəncamda göstərilib. Növbəti illər üçün proqramı sonra da qəbul etmək olar. Bu ilin proqramı indi təsdiq olunmalıdır ki, biz iqtisadiyyatı ağır vəziyyətdən çıxara bilək. Bu məqamı mən də vurğulayıram ki, 2016-cı il üçün ayrıca proqram qəbul edilsin”.

**İqtisadçı ekspert Azər Mehtiyev** isə bu proqramın həyata keçirilməsi üçün qoyulan tarixin gecikdirilməsinə diqqət çəkdi: “Bizim də gözləntimiz bundan ibarət idi ki, indiki halda ölkə başçısı bir islahatlar proqramı qəbul edəcək. Ölkə iqtisadiyyatının inkişafı ilə bağlı artıq hazırlanmış sənəd təqdim olunacaq. Ancaq reallıq onu göstərir ki, hazırda hökumətdə belə bir işlənmiş, hazırlanmış sənəd yoxdur. Hələ bundan sonra bu istiqamətdə işlərə başlanılacaq. Diqqət yetirirsinizsə, sərəncamda göstərilir ki, işçi qrupu 6 ay müddətində diaqnostika aparmalı, müəyyən strategiya işləməli, 2020-ci ilə qədərki dövr üçün proqram, ondan sonrakı dövr üçün hədəfləri işləməlidir. Bu isə onu göstərir ki, bütün hazırlıq işləri hələ bundan sonra görüləcək. Təbii ki, ölkə iqtisadiyyatının böhranlı vəziyyətdə olduğu bir dövrdə itirilmiş bir zamandır. Ona görə ki, 2014-cü ildən başlayaraq dünya bazarında neftin qiyməti düşməkdə idi. 2015-ci il tam bir böhran ili oldu, hər kəs də bu



**Vahid Əhmədov:** “Mükəmməl bir sənəddir, ancaq onun həyata keçməsi üçün çox ciddi işlər görülməlidir”



**Azər Mehtiyev:** “Bu islahat proqramı çoxdan ortada olmalı idi”

vəziyyəti görürdü. Artıq çoxdan bir islahat proqramı ortada olmalı idi. Ancaq hökumət yalnız indi belə bir strategiyanın hazırlanmasına başlayıbsa, bunun hazırlanması, təqdim olunması, təsdiq olunması hamısı zaman tələb edir. 6 ay o deməkdir ki, bu sənəd ən yaxşı halda bu ilin sonuna təqdim olunacaq və gələn ilindən bunun icrasına başlanılacaq. Bu isə iqtisadiyyat üçün böyük bir zaman itkisidir”.

**Ekspert bildirdi ki, bu xəritədə nəzərdə tutulan layihələrin həyata keçirilməsi üçün bir sıra islahatların aparılmasına ehtiyac var:** “Bu dəfə ölkədə idarəetmə aparatlarından, institusional islahatlardan tutmuş, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən və qanunçuluğu bərpa edən məsələlər də olmalıdır. Bu dəqiqə ölkədə ən vacib məsələlərdən biri qanunların işləməməsi məsələsidir. Ən vacib məqam qanun qarşısında hər kəsin bərabərliyinin təmin olunmasıdır. İkinci bir məsələ kimi, azad məhkəmələrin olması təmin edilməlidir. Nə qədər ki, müstəqil məhkəmələr olmayacaq, o zamanadək biz sahibkarlığın inkişafından danışa bilməyəcəyik. Bunun davamı ki, ən vacib məsələ məmurların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına yol verilməməlidir.

Bu inhisarçılığın aradan qaldırılması istiqamətində addımların atılmasını tələb edir. Məmurların sahinkarlıqla məşğul olmasının qarşısını almaq üçün gəlir bəyannaməsi haqqında qanun qəbul edilməlidir".

**Azər Mehtiyevin fikrincə, rəqabət mühitinin formalaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin olması, ölkədə investisiya mühitinin yaxşılaşdırılması da vacibdir:** “O cümlədən xarici investorlar üçün ölkənin cəlbedici olması, dünyanın tanınmış brendlərinin ölkəyə cəlb olunması və emal sənayesində iştirakının təmin edilməsi üçün şərait yaradılmalıdır. Əks mərkəzləşmə islahatlarının keçirilməsinə ehtiyac var. Ölkədə yerli özünüidarəetmənin gücləndirilməsi və mərkəzləşmiş icra strukturlarının ləğv edilərək, səlahiyyətlərinin onlara verilməsinə ehtiyac var. Bu problemlər həll olunmadan, yalnız bir sahənin inkişafına dəstək verilməsi ölkə iqtisadiyyatının inkişafına gətirib çıxara bilməyəcək”.

❑ **Nərgiz LİFTİYEVA**

# Rövşən Cavadov ölümünün 21-ci ilində məzarı başında anıldı

**1995-ci il, martın 17-də OMON hadisələrində öldürülən Rövşən Cavadov yad edilib. Xüsusi Təyinatlı Polis Dəstəsinin (OMON) rəhbəri olan Rövşən Cavadovun məzarını ailə üzvləri, qohumları, dostları və silahdaşları ziyarət edib.**

Musavat.com-un məlumatına görə, martın 17-də səhər R.Cavadovun yaxınları Xırdalan qəbiristanlığına gələrək onun məzarını ziyarət ediblər. Rövşən Cavadovun məzarı atası Bəxtiyar Cavadov, anası Tamara Cavadova və oğlu Laçın Cavadovun məzarları yanındadır.

Qeyd edək ki, R.Cavadovun yeganə oğlu olan 1974-cü il təvəllüdlü Laçın Cavadov 2003-cü ildə müəmmalı şəkildə vəfat edib. Rövşən Cavadovun atası isə nəvəsinin ölümündən 2 ay əvvəl vəfat etmişdi. Anası Tamara Cavadova 2011-ci ilin aprel ayında ürək tutmasından dünyasını dəyişib. R.Cavadovun bir qızı var və o da hazırda ölkə xaricindədir.

Məzarları ziyarətə gələnlər arasında R.Cavadovun əmisi, bacısı, dayısı oğlu, digər yaxın ailə üzvləri və onunla birgə döyüşlərdə iştirak edən OMON-çular da olub. Rövşən Cavadovun ailə üzvləri açıqlama verməkistəmədilər və fotolarının çəkilməməsini xahiş etdilər.

R.Cavadovun məzarını ziyarətə gələnlər arasında OMON-un keçmiş komandiri

## “Sadəliyi, vətənpərvərliyi, cəsurluğu ilə nümunə idi...”






Nizami Şahmuradov da var idi. Rövşən Cavadovun ruhuna fatihə oxuyan Nizami Şahmuradov onu unutmadıqlarını və hər il məzarı ziyarətə gəldiklərini bildirdi: “İndi bizim mənəvi borcumuz burda olmaqdır. İnanırıq ki, gələcək nəsillər də Rövşən Cavadov kimi qəhrəmanlarımızı unutmayacaq. Rövşən Cavadovu sevənlər, onu tanıyanlar bunu çox yaxşı bilir”.

OMON rəhbərinin həmyerlisi, Laçın ziyalılarından olan Zahid Nərimanoğlu Rövşən Cavadovun unudulmaz insan olduğunu və onu tanıyanların, sevənlərin xatirəsində daim qalacağını dedi: “21 il sanki bir anın içində gəldi keçdi. Rövşən unudulmaz insandır, biz onun xatirəsini yaşatmağa çalışırıq. Ona hörmətimiz, sevgimiz sonsuzdur. İndi bacardığımız onun məzarını ziyarət etməkdir”.

**R.Cavadovun silahdaşlarında olan Nərimanov Şəhid Ailələri Cəmiyyətinin sədri Cümşüd Sultanov 21 il keçməsinə baxmayaraq, baş verənləri unutmadıqlarını bildirdi:** “21 il geridə qalıb. Rövşən kimi oğulun burda yatdığını görmək çox çətindir. Sadəliyi, vətənpərvərliyi, cəsurluğu ilə nümunə idi. Ancaq həmin insan indi bu məzarlıqda yatır. Çox çətindir... Tarixi heç kim unutmur. Nələr baş verdiyini ağıllı, məntiqli, başa düşmək istəyən insanlar bilir”.

Xatırladaq ki, 21 il əvvəl OMON-la Daxili Qoşunlar arasındakı silahlı qarşıdurma Rövşən Cavadovun öldürülməsi və XTPD-nin tamamən ləğv edilməsi ilə nəticələnmişdi. Proseslər 1995-ci il, martın 13-dən başlamışdı. Qazaxda başlayan silahlı toqquşmalar martın 17-nə keçən gecə Bakının 8-ci kilometr qəsəbəsindəki döyüşlərlə başa çatdı. Rəsmi statistikaya görə, toqquşmalarda 22 hərbçi, 7 mülki şəxs, 1 polis əməkdaşı həlak olub, 8 XTPD əməkdaşı öldürülüb, 105 nəfər yaralanıb. Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat edib.

**Qeyd edək ki, OMON hadisələrinə görə həbs edilənlərin bir hissəsi müxtəlif vaxtlarda əfv edilərək azadlığa buraxılıb. Amma hələ də həbsxanalarda üç ömürlük OMON-çu məhbus var. Onlar XTPD-nin Qazax bölməsinin rəhbəri olmuş Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovdur.**

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Jurnalistin qətlində təqsirləndirilənlər son söz dedilər



**Martın 17-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı həbs edilən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevin cinayət işi üzrə məhkəmə prosesi davam edib.**

Virtualaz.org saytının məhkəmədə iştirak edən müxbirinin verdiyi məlumata görə, prosesdə təqsirləndirilən şəxslər son sözlə çıxış ediblər. Təqsirləndirilən Arif Əliyev hakimdən ədalətli qərar verilməsini istədi. Kənan Mədətov isə günahının olmadığını bildirdi. Digər təqsirləndirilənlər son söz üçün hakimdən vaxt istədilər.

Məhkəmə iclası martın 31-dək təxirə salındı.

Xatırladaq ki, ann.tv-nin əməkdaşı Rasim Əliyev facebookda futbolçu Cavid Hüseynovu tənqid edən statusuna görə 8 avqust, 2015-ci ildə Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülüb. Jurnalist çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və ertəsi gün orada vəfat edib.

Bununla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev barəsində həbs-qətimkan tədbiri seçilib.

O cümlədən, “Qəbələ” klubunun sabiq kapitanı Cavid Hüseynov da R.Əliyevin döyülərək qətlə yetirilməsi ilə əlaqədar açılan cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb. C.Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Qeyd edək ki, jurnalist Rasim Əliyevin döyülərək öldürülməsinə səbəb olmuş futbolçu, “Qəbələ” klubunun kapitanı Cavid Hüseynovun barəsindəki cinayət işi digər təqsirləndirilən şəxslərin işindən ayrılıb.**

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

## Aİ liderləri Brüsselə toplaşır



**Miqrasiya problemi martın 17-də Brüsseldə işə başlayan Avropa İttifaqı sammitinin əsas mövzusu olacaq. Jurnalistlər artıq onu "Aİ-Türkiyə arasında plandan kənar sammit" adlandırırlar.**

"Euronews" telekanalı xəbər verir ki, Avropa ölkələrinin liderləri Ankaranın on gün bundan əvvəl keçirilən forumda irəli sürdüyü tələbləri müzakirə edəcək. (AzərTAc).

Türkiyə qeyri-leqal mühacir axını ilə mübarizə üçün 20 milyard avro maliyyə yardımı ayırmağı, həmçinin vizasız rejimin tətbiqini sürətləndirməyi və Avropa İttifaqına üzvlüklə bağlı danışıqları aktivləşdirməyi tələb edir. Bunun əvəzində Türkiyə hökuməti Avropa İttifaqına buraxılmayan mühacirlərin geri qaytarılmasına razılaşa bilər.

Son zamanlar bəzi ölkələrin tətbiq etdiyi məhdudiyyətlər səbəbindən qaçqınların əksəriyyəti Türkiyəni tərk etməkdə çətinlik çəkir. Buna baxmayaraq, hər gün 2 minə qədər insan bağlanan sərhədləri aşmaq ümidi ilə Egey dənizini keçərək Avropaya üz tutur.

## Türk düşməni Jirinovski...

### ALDP sədri erməniləri Ankaraya qarşı terrora çağırdı



**"Biz Ermənistanı da, kürdləri də, yunanları da, bolqarları da, suriyalıları da dəstəkləyə bilərdik.**

Onların hamısı Türkiyəyə nifrət edir. Türkiyə rəqibləri ilə əhatə edilib: Qərbdə bolqarlar və yunanlar, şərqdə ermənilər və kürdlər, cənubda Suriya. Türkiyənin axırıdır!"

Bunları Lenta.ru-ya verdiyi müsahibəsində Rusiya Liberal Demokratik Partiyasının lideri Vladimir Jirinovski deyib.

Amma onun sözlərinə görə, Türkiyənin dağılması 5-10 ildən sonra baş verəcək.

"Onsuz da o dağılacaq və heç bir rol oynamayacaq. Amma RLDP-nın konkret mövqeyi var: müstəqil kürd dövlətini dəstəkləmək. Kürdlər Türkiyədə, Suriyada, İranda və İraqda yaşayırlar, onlar 40 milyondur. Amma bu təklif bizim proqramımızdadır", - siyasətçi bəyan edib.

**Bu yaxınlarda Ermənistana müraciətlə verdiyi "indi Türkiyəyə məxsus olan tarixi torpaqların qaytarılması"na və bu çağırışın həyata keçirilməsinə dair bəyanatına gəldikdə isə Jirinovski deyib:** "Qoy bunu ermənilər özləri həll etsinlər. Kürdlər öz dövlətlərinin yaradılması üçün necə mübarizə aparırlar? Əllərində silahla. Eləcə də qoy ermənilər diplomatik, iqtisadi, siyasi, həm mənəvi, eləcə də istənilən tədbirlərdən istifadə etsinlər. Sonda isə görünür ki, onlar öz torpaqlarını silahla geri qaytarmalı olacaqlar", - RLDP rəhbəri vurğulayıb.(oxu.az)

## ABŞ Bakıdakı səfirliyinin mühafizəsini gücləndirdi

### ABŞ-ın Azərbaycandakı səfirliyi öz mühafizəsini gücləndirib



**Virtualaz.org əməkdaşının əldə etdiyi məlumata görə, səfirliyin mühafizəsinə əlavə polis qüvvələri cəlb olunub.**

Səfirlikdən bunun nə ilə bağlı olduğunu şərh etmək istəməyiblər. Yalnız bunu bildiriblər ki, səfirlik bu məsələyə həmişə ciddi yanaşır və onun təhlükəsizliyi etibarlı şəkildə təmin olunur.

**Almaniyanın Ankaradakı səfirliyi martın 17-dən etibarən fəaliyyətini dayandırıb. Modern.az Almaniya KİV-nə istinadən xəbər verir ki, terror təhlükəsi ilə bağlı Almaniyanın İstanbuldakı konsulluğu da fəaliyyətini müvəqqəti dondurub.**

**Almaniya Xarici İşlər Nazirliyi vətəndaşlarını Taksim meydanını ziyarət etməkdən çəkinməyə çağırıb.**

Almaniya təhlükənin haradan qaynaqlandığını bildirməsə də, Türkiyədə terror təhlükəsinin yüksək olduğunu bildirib.

Bu arada Türkiyənin paytaxtı Ankara şəhərində martın 13-ü baş verən terror hücumu ilə bağlı məsuliyyəti "Kürdüstan Azadlıq Şahinləri" (TAK) təşkilatı öz üzərinə götürüb.

Virtualaz.org Türkiyə mətbuatına istinadən xəbər verir ki, PKK terror təşkilatının bir qolu kimi tanınan TAK bu barədə rəsmi internet səhifəsində açıqlama yayıb və terror aktını Səhər Çağla Dəmirin reallaşdırdığını qeyd edib.

Bundan öncə isə Ankarada fevralın 17-də baş verən terror aktının məsuliyyətini öz üzərinə götürən TAK ABŞ-ın terror təşkilatları siyahısında yer alıb.

Ankarada terror hadisəsini törədən ikinci terrorçunun adı da açıqlanıb. "Trend"in məlumatına görə, bu barədə Türkiyənin "Hurriyet" qəzeti ölkənin hüquq-mühafizə orqanlarına istinadən məlumat verib.

Həmin terrorçunun 26 yaşlı Türkiyə vətəndaşı Özgür Unsal olduğu bildirilib.

Qəzetin verdiyi məlumata görə, Ö.Ünsal Ankaraya 6 il əvvəl Zonquldak əyalətindən gəlib.

Daha bir xəbər də özünü demokratiyanın beşiyi hesab edən Belçika rəhbərliyi barədədir. Məlum olub ki, ölkə rəhbərliyi Brüsselin mərkəzində PKK və PYD terrorçuları üçün yas çadırının qurulmasına icazə verib. Axar.az. "Yeni Şəfəq" qəzetinə istinadən xəbər verir ki, Brüsselin mərkəzində qurulan çadırda Avropa Birliyindən (AB) bütün dünyaya terror mesajı verilib. PKK lideri Abdullah Öcalanın şəklinin yer aldığı mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qarşı təhqiredici afişalar asılıb.

AB-nin mərkəzindəki çadır müəyyən qruplar tərəfindən etirazla qarşılanıb.

***

# Türkiyə terror xəbərdarlığı panikasında

### Almaniyan Ankaradakı səfirliyini bağladı; ekspertlər "Ərdoğan gedərsə, terror bitər" iddiasını rədd edir








**Nonses:** Özünü demokratiyanın beşiyi hesab edən Brüsseldə Ankara terrorçularına yas tutulur

Ankarada baş verən dəhşətli terror hadisəsindən sonra Türkiyə ictimaiyyətində yenidən prezident Rəcəb Tayyib Ərdoğanın istefası məsələsi gündəmə gəlib. Hesab olunur ki, PKK və ona bağlı olan terrorçu qruplar bu qanlı teraktları prezident Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçirirlər. Məsələ ilə bağlı münasibətini bildirən Ərdoğan isə onun istefasını istəyənlərə aşağıdakı kimi cavab verib: "Ərdoğan Türkiyənin başından gedərsə terror gedər, demokratiya gələr deyirlər. Kim deyir bunu? Terror təşkilatının Qəndildəki rəhbəri. Başqa kim deyir? Amerikanın buradakı diplomatları, bəzi köşə yazarları... Bəs yaxşı, Ərdoğan gedərsə doğrudan da, terror gedər, ölkəyə demokratiya gələr? Terrorun Türkiyədəki tarixi 35 ildir. Həmin dövrlərdə iqtidarda deyildim, ona nə deyəcəksiniz? Kızılayda bomba partladaraq insanların ölümünə səbəb olan terror təşkilatının demokratiya ilə nə əlaqəsi ola bilər. Terror təşkilatı lideri ilə eyni dildə danışanlara terrorçu deyil, bəs nə deyəcəyik?"

*Türkiyədə partlayışların səbəbkarı Ərdoğan siyasətidirmi?*

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Elxan Şahinoğlu** bildirib ki, terrorun bitməsini Ərdoğanın istefası ilə bağlamaq məntiqsiz yanaşmadır: "Belə çıxır ki, bu gün prezident sarayında Ərdoğan deyil, Kamal Kılıcdaroğlu, yaxud da Dövlət Baxçalı olsa PKK atəşkəs elan edəcək? Onlar belə olarsa tələblərindən vazmı keçəcəklər? 40 ildir PKK Türkiyədə terror törədir. Bu dövr ərzində Türkiyə rəhbərliyində başqa şəxslər də olublar. Ancaq PKK öz niyyətlərindən əl çəkməyib. Əksinə, Ərdoğan 2000-ci illərdə gələn kimi "Kürd açılımı" siyasətini ortaya qoydu ki, bu məsələni danışıqlar yolu ilə həll etsinlər. Neçə il atışma, ölüm-itim olmadı. Məlum oldu ki, kürdləri heç "Kürd açılımı" maraqlandırmayıb. Ərdoğan bu istiqamət üzrə çox addımlar atdı. Kürdlərin televiziya yayımları, kürdcə məhkəmədə özünü müdafiə hüququ, kürd dilinin geniş yayılması, adların kürdcə qoyulması üçün şəraitin yaradılması və digər bu kimi addımları Ərdoğan atdı. Lakin göründü ki, PKK-nın məqsədi Türkiyəni bölərək Kürdüstan yaratmaqdır. Bununla da nəyinki Ərdoğan, Türkiyənin heç bir ağlı başında olan lideri razılaşmaz".

**Politoloq bu fikrin haradan yayılması ilə bağlı da münasibətini bildirib:** "Bu kimi fikirləri onunla izah edirlər ki, bu günlərdə PKK-nın liderlərindən olan Cəmil Bayık açıqlama verdi ki, guya onların müharibəsi Ərdoğanladır. Ərdoğan da gedənə qədər savaşacaqlar. Həmin şəxsin də sözlərini təkrarlayan siyasətçinin də belə çıxır ki, PKK-dan heç bir fərqi yoxdur. Bu, həmin şəxsin PKK ilə eyni mövqedən çıxış etməsi anlamına gəlir".

Məsələ ilə bağlı **politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat"a bildirib ki, Ərdoğanın getməsi, Türkiyənin bölünməsi təhlükəsinə səbəb olar: "İndiki məqamda bu iqtidar gedərsə, terrorçular daha da geniş əl-qol açarlar, Türkiyə çox təhlükəli xaosa sürüklənər. Hətta qardaş ölkə parçalanmaq təhlükəsi qarşısında qala bilər. Heç kim elə zənn etməsin ki, bu gün Ərdoğan iqtidarı getsə, Türkiyədə terror aktları dayanacaq. Əksinə, daha dəhşətli hadisələr bundan sonra başlaya bilər".

❑ **Əli RAİS**

Yeni Müsavat
N 62 (6383) 18 mart 2016

# "Düz demirəmsə, mandatımı təhvil verirəm..."

## Yevda Abramov: "AST Telman"ın obyektlərinin bağlanmasından sonra 10 min adam Qubaya qayıdıb"

**Milli Məclisin martın 15-də keçirilən iclasında deputat Yevda Abramovun məmurları sərt tənqid etməsinə müəyyən reaksiyalar verilib. Həm bir sıra qurumlardan, həm də hakim partiyadan verilən reaksiya deputatın fikirlərinin təkzibinə yönəlib. Y.Abramovla geniş söhbətimizdə bu məsələlərdən danışdıq.**

***- Yevda müəllim, parlamentdəki çıxışınızda Qubanın bir kəndindən bəhs etdiniz. Bəlkə əvvəlcə bu məsələyə aydınlıq gətirəsiniz.***

- Həmin kənd 6 ildir salınıb. Gözəl kənddir, yaxşı evlər tikilib. Burada əhalinin sayı 2 mindən çoxdur. 5 il bundan qabaq Qubanın həmin bu Güləzi kəndi ilə bağlı bizim Nazirlər Kabinetindən xahişimiz olmuşdu. O kəndi Dərbənd yolunun üstündə tikiblər. Sadəcə olaraq bu kəndin, onun sakinlərinin heç bir sənədi yoxdur. Uşaqlar doğulur, ünvan lazım olur, adamlar çarəsiz qalır. Bu kəndin sənədi olmalıdır ki, onunla bağlı hansısa məsələ qaldırım, ya insanların təhlükəsizliyi təmin olunsun. Ancaq hələ bu kəndin adı da təsdiq olunmayıb. Camaatın suallarına cavab verə bilmirəm, yerimdə donub qalıram. Ona görə də iclasda dedim ki, məgər bu kənd hökumətin xəbəri olmadan tikilib? Bu kəndin 187 evi var. Dağ Güləzini 5-6 il əvvəl başqa əraziyə köçürdük, o kənd tamam sürüşmüşdü. Ancaq Güləzi kəndi havadan asılı vəziyyətdə qalıb. İcra başçısı da deyir ki, Yevda müəllim, mən 2-3 dəfə müraciət etmişəm, cavab yoxdur. Ona görə də mən dedim ki, hökumətin hesabatında məsələni qaldıraram, görüm hökuməti hərəkətə gətirə bilirəmmi? Mən dünya ölkələrinin prezidentləri qabağında aciz qalmıram, amma seçici qarşısında aciz qalıram ki, mən neyləməliyəm? Danışırsan, acıqları gəlir, danışmırsan, səni "lal"ların siyahısına yazırlar. İndi neyləyək, çaşıb qalmışıq.

***- Hökumətin hesabat günü digər məsələlərlə bağlı da sərt tənqidləriniz oldu. Çıxışınıza reaksiya varmı?***

- Yəqin ki, reaksiya olacaq. Artur müəllim həmişə qeydlərini aparır. Keçən il də mən doğum evi, sinaqoq barədə həyəcan təbili çaldım, ondan sonra Kərəm Həsənov onları xalqa qaytardı. Digər fikirlərimə də reaksiya olduğu qənaətindəyəm. Artıq ATV-dən Qonaqkəndə çəkilişə gediblər, rayondan mənə zəng edib dedilər. Yəqin araşdıracaqlar ki, mən düz demişəm, ya yox. Tanrıverdi Mustafayev deyib ki, Yevda müəllim düz demir. Allaha and olsun, bu gün Qubadan 10 nəfər zəng edib ki, "halal olsun, Yevda müəllim!" Adam var, 900-1200 manat işıq pulu borcu yazıblar. Tanrıverdi müəllim gəlsin Qubaya, mən onunla üzləşim. Əgər mən düz demirəmsə, mandatımı təhvil verirəm, yox əgər özü düz demirsə, vəzifəsindən istefa versin. Qüdrət Həsənquliyev dedi ki, gəl səni bir "maç" eləyim, mənə də 600 manat borc gəlib. Mən xalqın dərdini zala gətirmişəm, özümün şəxsi fikrim deyil.

***- Tanrıverdi Mustafayev deyib ki, borc şəxsin adına yox, həmin ünvana yazılır və əsassız olması mümkünsüzdür...***

- 787 manatlıq borc mənim ünvanıma gəlib. Sumqayıt deyir ki, yalandır. Mən getdim Sumqayıtda işimi bitirdim, sıfırda oturdum. Mənim işıq pulu borcum yoxdur axı. Mən Bakıda da işıq yandırıram, həmişə dövlət mənə borclu olur, artıqlamasıyla ödəyirəm. Niyə mənə borc yazıblar? Yüzlərlə insana borc qəbzi göndəriblər.

***- Belə başa düşdüm ki, sizin Qubada eviniz olsa, da orda yaşayış yoxdur, eləmi?***

- Bəli, mən yaşamıram. Ata evidir, sökülüb-dağılır. Ayda-ildə bir dəfə iclaslara, seçicilərlə gedəndə Bakıya çatdıra bilməsəm, gedib qıfılı açıram, ata evimdə yatıram. Tək adamam da.

***- Bəlkə kimlərsə sizin evə gələn elektrik xəttindən gizli xətlə istifadə edir...***

- Qətiyyən. Sumqayıt da deyir ki, yalandır, sizin sayğacda borcunuz yoxdur, gedin istirahət edin, rahat nəfəs alın.



### "Mən orda təkcə düyməni basmaq üçün oturmamışam axı"

Yüzlərlə adam gedib, deyiblər ki, 900 manat borcun var, 100 manat ver, əl çəkək. 100-150 manat alıb borcu silirlər. Belə olmaz axı... Tanrıverdi Mustafayevin bundan xəbəri yoxdur. Gəlsin Qubaya. Mən bu saat icra başçısının müavini ilə danışdım. Dedim, Yusif müəllim, siz özünüz məktubla Baba Rzayevə müraciət etmisiniz. Deyin ki, məgər deputat yalançıdır? İkinci tərəfdən də, mən yalan danışan adam deyiləm. Mən Allahın yanında günaha bata bilmərəm. Özü də ciddi bir yerdə, parlamentdə yalan danışmaram. Mənim Baba Rzayevlə, ya "Azərenerji" ilə qəsdi-qərəzliyimmi var?

***- Bəs, necə olub kütləvi şəkildə əsassız şəkildə borc yazılıb?***

- Oliqarxların pullarıdır, kommersiya ilə məşğul olan şəxslərin borclarıdır. Milyonlarla manatlıq borcu insanlar arasında paylayıblar, kütləvi narazılıq yaradıblar.

***- Yəni oliqarxlar elektrik enerjisindən istifadə ediblər, pulunu kasıbların adına yazdırıblar?***

- Bəli, bəli. Halal olsun. Siz məgər bizdən az bilirsiniz? Bunlar Qubadakı oliqarxların pullarıdır. Çörək zavodlarının, qapı düzəldən müəssisələrin, "svarka" aparatları işlədənlərin borclarıdır. Sadəcə camaata ona görə paylayıblar ki, günlərin birində günəş doğacaq, cənab prezident əfv verəcək və bu pullar silinəcək.

***- Bu məsələ ilə bağlı seçicilər adından prezidentə müraciət edəcəksinizmi?***

- Mən hökumətə dedim. Nəticə olmasa, Bakı ilə məsləhətləşib cənab prezidentə müraciət edəcəyəm. Mən Aleksandr Matrosov deyirəm ki, bədənimi qurğuşunun qabağına qoyum. Mən seçicilərimin müraciətini çatdırıram. Mənim oğlum-qızım burda yaşamır ki, kiməsə yaltaqlanım. Bundan sonra da pensiyaya gedəcəyəm. Növbəti dəfə xalq məni seçər, sağ olsun, seçməz gedərəm balalarımın yanına, əməlli-başlı istirahətimi edərəm. Sadəcə, hər kəs bilsin ki, mən bu xalqın, bu dövlətin, cənab prezidentin vurğunuyam. Azərbaycan xalqı gözəl yaşamağa layiqdir. Mənim başqa

### "Azərbaycanda aldığım 1900 manatı xaricdə təklif olunan 19 min dollardan üstün tuturam..."

təmənnam yoxdur, maaşla yaşayan adamam. Məni o qədər xarici ölkəyə dəvət ediblər ki... Amma mən Azərbaycanda aldığım 1900 manatı xaricdə təklif olunan 19 min dollardan üstün tuturam... Mən hər dəfə danışmıram, hətta hər dəfə danışanlara replika atıram ki, qoy başqaları danışsın.

***- YAP-dan reaksiya gəldi, həmkarınız Siyavuş Novruzov dediklərinizə fərqli reaksiya verdi. Sizin üçün bu reaksiya gözlənilən oldu?***

- Mən Siyavuş Novruzovdan həmişə həqiqəti müdafiə edəcəyini gözləyirəm. Lazım gələndə işləməyən məmurları Siyavuş müəllim özü də tənqid edir. Tənəffüsdə Əli Əhmədov da dedi ki, Yevda müəllim çıxışınız xoşuma gəldi.

***- Amma Siyavuş Novruzov sizinlə razılaşmayıb...***

- Demokratik cəmiyyətdir, kim razılaşmır, razılaşmasın. Mən heç kəsdən incimirəm.

***- Hökumət üzvlərindən sizə sərt təpki, ya qınaq oldumu?***

- İnanın Allaha, mənə təşəkkürdən başqa heç nə deyilmədi. Mən sözümü demişəm də. Parlament bəs, nə üçündür? Parlament danışılan yerdir. Mən orda təkcə düyməni basmaq üçün oturmamışam axı.

***- Siz məmurların xalqı dövlətdən və prezidentdən narazı saldığını dediniz...***

- Bəli, narazı salırlar. Bir gündə dollar bu qədər qalxdı. Küçələrə çıxan adamlardan soruşdum ki, siz hökumətdən nə istəyirsiniz? Dedilər Yevda müəllim, bir gündə unu 21 manatdan 27 manata qaldırıblar. Yaxşı ki, cənab prezident işə qarışdı, unun qiymətini düşürdü. "AST Telman"ın obyektlərinin bağlanmasından sonra 10 min adam Qubaya qayıdıb, mən özüm araşdırma aparmışam. 10 min nəfər də devalvasiyadan sonra Bakıdan kəndlərə axışıb. Mən əvvəlki hesabatlarda da demişdim ki, neftin qiyməti düşəcək, insanlar Rusiyadan qayıdacaq. Çünki mən Rusiya Federasiya Şurasında olanda sədr müavini ilə görüşəndə də dedilər ki, vəziyyətlə əlaqədar çoxlu insanlar, taciklər, azərbaycanlılar Rusiyadan gedəcəklər. Mən də qayıdandan sonra demişdim ki, iş yerləri açmaq lazımdır, yoxsa bunlar potensial narazılar olacaq. İndi bunlar narazı insanlardır da. Hamı öz evinə bir tikə çörək aparmaq istəyir. Kişi həyat yoldaşının, oğul atanın yanında xəcalətli qalmaq istəmir. Bu geri dönmələr olacaq, hökumət əvvəldən bu vəziyyətə hazır olmalı idi. Qeyri-neft sektoruna 2-3 il qabaq daha çox fikir verməliydik.

***- Qubadan danışırsınız, şimal bölgəsidir, bir az da həssas bölgədir. Yəqin ki, sizin narahatlığınız həm də bununla bağlıdır, eləmi?***

- Təbii ki. Tamamilə doğru deyirsiniz, həssas yerdir. İnsanlar nə iləsə məşğul olmalı, biri qutab, peraşki bişirib satmalı, o biri evinin pəncərəsini çıxarıb ordan nəsə satmalı, başqası da nəsə bir iş görməli, evinə çörək qazanmalıdır. İş yeri yoxdur da... Kondisioner zavodunda 2 min adam işləyirdi, bu gün yoxdur, kombinat yoxdur. Səhiyyə və təhsil obyektlərindən başqa bir obyekt qalmayıb. 100 adamın işləyə biləcəyi bir sex yoxdur. Yaxşıdır ki, Qubada ağsaqqalı eşidirlər. Şükürlər olsun ki, deputat Vahid Əhmədov da gözəl insan, gözəl ağsaqqaldır, camaat onu da hər zaman eşidir. Başçımız da insanların qarşısına çıxdı, görüşdü. Biz hər zaman narazı olan insanlarla görüşüb onları başa salmışıq ki, bu çətinliklər dünyada olan çətinliklərdir, ötüb keçəcək. Xalq prezidenti sevir, ondan razıdır, siyasətini müdafiə edir. Hakimiyyətin də, deputatların işini görən böyük islahatçı olan prezidentimizdir. Rusiyada nazirlər, komitə rəhbərləri vaxtaşırı televiziyaya çıxır, xalqın, rublun taleyi barədə danışır, sualları cavablandırır. Ancaq bizdə heç kim demir ki, kənd təsərrüfatı ilə bağlı 1-2 il ərzində Qubada nə olacaq. Mən deyirəm ki, Qubada iqtisadi məsələlərlə bağlı müşavirələr keçirilsin, biz də təkliflər verək. Biz başqa heç nə istəmirik. Mən seçicilərimin sözünü dedim ki, ürəyimdə qalmasın.

❑ Elşad PAŞASOY



# Müstəqilliyin bir qədər azalması

Zamin HACI
zaminhaci@gmail.com

**Siyasi məhbusların bir çoxunun əfv sərəncamı ilə azadlığa buraxılması şübhəsiz müsbət hadisədir. Arzu edərdik onların həbsinə səbəb olan hadisələr də ortalıqdan qalxsın, nəhayət, ölkəmiz kommunizm-yapizm yolunda iri addımlarını davam etdirsin. İnşallah, şəxsən mən ümidvaram Formula-1 yarışı ərəfəsində qalan siyasi dustaqlar da ailələrinə qovuşar, ailəsi olmayanlar da ailə qurarlar, çünki bunun üçün ölkəmizdə hər cür münbit şərait yaradılmışdır, hətta türmədə bakirələrin doğması möcüzəsinə şahidik, görməyənlər nankordur.**

Həbsə səbəb olan hadisələri nahaq yerə qeyd etmədim. Onlardan bəzisini vətənə xəyanətdə, bəzisini seçki saxtakarlığına etiraz etdiyi üçün, bir çoxunu isə hətta mitinqə çıxdıqlarına görə tutmuşdular. Bunlar həll olunubmu? Məncə yox. Vətənə yenə xəyanət imkanları qalır, hələ də seçki keçirilir, mitinqlər üçün meydanların isə hamısında millət istirahət üçün uzanmamışdır. Gərək cinayətkarlığa səbəb olan şeylərin kökünü qazıyasan.

O cümlədən, siyasi dustaqların azadlığa çıxması Azərbaycanın müstəqilliyini bir qədər azaltmışdır, şəxsən mən dünən axşam evin su çənini yoxlayanda müstəqilliyin də səviyyəsinə baxdım - bir neçə santimetr enmə gözə girirdi. Axı hər il bir neçə dəfə bayramqabağı əfv sərəncamı söhbəti düşəndə, Avropadan, Amerikadan, Afrika və Okeaniyadan-filandan siyasi dustaqları buraxmaq tələbləri səslənəndə hökumət nümayəndələri bəyan edirdilər: "Azərbaycan müstəqil siyasət yürüdür, bizə heç kim təzyiq edə bilməz". Hətta 3 ay qabaq Yeni il münasibəti ilə əfv verildi, siyahıya qəsdən 1 damazlıq siyasi məhbus da salınmadı, çünki o ərəfədə ABŞ Konqresindən Smit soyadlı bir kişi hökumətimiz haqda ağzına gələni demişdi, siyasi dustaqları buraxmasaq, yapçılara embarqo qoymaqla hədələyirdi. Ondan sonra 4 ay hamı sakit durdu, cənab prezident də dedi, gedin yaşayın.

Ancaq indi bizim müstəqil siyasətimiz nədə görünəcək? İlqar Məmmədov, İlkin Rüstəmzadə, Seymur Həzi, Xədicə İsmayıl, İntiqam Əliyev və bir dəstə başqa siyasi məhbusları sağ olsunlar, nə yaxşı hələ zindanda qalıblar, müstəqilliyimizin qarantı rolunda çıxış edirlər. Hər bir güclü dövlətin əlinin altında belə məsuliyyətli vətəndaşlar olmalıdır ki, dövlətin müstəqil gücü görünsün. Elə bil lombarda siyasi dustaq girov qoyub müstəqillik götürürsən, bir müddət həmin müstəqilliyi xərcləyirsən.

Demokratiyanın belə mənfi cəhətləri də vardır, neyləmək olar. Elə ölkələr var orda siyasi dustaqları timsahlara yedizdirirlər, Novruz bayramında da camaat əfv gözləmir, gedib əzizləri yeyilən çayın qırağında hippopotama minib yarış keçirirlər. Çox asan müstəqillikdir, lakin bizim öz yolumuz vardır, bizim milli mentalitetimiz, əsrlərin dərinliyindən süzülüb gələn əxlaqımız və mənəviyyatımız tələb edir ki, dünyaya Günəş kimi doğaq!

Sözgəlişi, bəzi Avropa ölkələrində ağsaqqal evə girəndə astanada "ühü-ühü" eləmir. Nəticədə gəlin çatdırıb ətəyini aşağını çəkmir, namus-qeyrət əldən gedir. Hətta Almaniyada ata uşağı babasının gözü qabağında qucağına alır! Bu dərəcədə mənəviyyatsız, əxlaqsız, "lemsə köpəyoğlu" millətlər vardır.

Ancaq bizim xalqımız belə məsələlərdə çox həssasdır. Bir ara mən uzun saqqal saxlayırdım, hamı saqqalıma baxandan sonra dərhal şalvarımın balağına da baxırdı, çünki bilmək istəyirdilər bu tip bəlkə vəhhabidir, Suriyadan təzə gəlibdir. Bu cür körpə qəlbli, kövrək münasibətdən çox sıxılırdım, qəlbim riqqətə gəlirdi, ASAN-Xidmət mərkəzlərinə müraciət eləyib ağlamaq üçün müvəqqəti icazə, lisenziya alırdım. Axırda qərara gəldim saqqalı qırxım, çünki uca millətimizə nigarançılıq yaşatmaq bizə yaraşmaz.

**Müstəqilliyin yerinin tezliklə dolması arzusuyla...**

# İqtidara qarşı sanksiya layihəsində Rusiya kəşfiyyatı izi

**Ötən saylarımızda xəbər vermişdik ki, bir neçə həftədir Amerika və Azərbaycan nümayəndələri mütəmadi olaraq Vaşinqtonda görüşlər keçirir. Məlumatlarda iddia olunurdu ki, Vaşinqton həbsdə olan siyasi məhbusların azad olunmasını, o cümlədən Milli Demokratiya və Amerika Respublikaçılar institutlarının Bakıda fəaliyyətinin bərpa edilməsini istəyir. Azərbaycan isə qondarma Qarabağ rejiminə maddi dəstəyin dayandırılmasına, bəzi anti-Azərbaycan dairələrinin Amerikada fəaliyyətini durdurmağa, iqtidara qarşı hazırlanmış "Azərbaycan Demokratiya Aktı" sanksiya layihəsinin gündəmdən çıxarılmasına çalışır.**



# ABŞ-ın prezident Əliyevlə bağlı sensasion planı

## Konqres "Azərbaycan Demokratiya Aktı" sanksiya layihəsini "arxivə" göndərir; Pentaqon Ağ Evdən Azərbaycan prezidentinə daha ciddi dəstək verilməsini və etimad göstərilməsini istəyir; Pentaqondakı mənbə: "Qərbin regionda maraqlarını təmin edən siyasi və iqtisadi layihələrə 2016-2017-ci illərdə nəzarət İlham Əliyevə veriləcək"

**Bildirilirdi ki, Pentaqon və Amerikanın Enerji Nazirliyi sanksiya qərarının qəbul edilməsinə qarşıdırlar, bunun yanlış olduğunu sübut etməyə və basda Ağ Ev olmaqla, Konqresi də belə bu qanun layihəsinin qəbulu fikrindən daşındırmağa çalışırlar.**

Sanksiya məsələsində iqtidarla razılaşma ola biləcəyini "Azərbaycan Demokratiya Aktı" layihəsinin müəllifi kimi tanınan konqresmen Kristofer Smitin Bakıda iki dəfə prezident İlham Əliyevlə görüşdüyünü xatırlatması və dövlət başçısının martın sonunda ABŞ-da keçiriləcək nüvə sammitində iştirakı zamanı da bir araya gələcəyini deməsi də bu məsələdə anlaşma olacağına işarə sayıla bilərdi.

"Yeni Müsavat"ın mötəbər diplomatik mənbələrdən bu müzakirələrlə bağlı yeni sensasion bilgilər əldə edib. Məlumatda iddia olunur ki, ABŞ-ın əsas təsisatlarından sayılan Pentaqonun Azərbaycan məmurlarına və ölkə rəhbərliyinin ətrafına sanksiya tətbiq olunmaması üçün apardığı səylər nəticə verməkdədir. Belə ki, Pentaqon artıq basda Konqres və Ağ Ev olmaqla, Amerikanın digər qərar və təsir institutlarını inandirib ki, əslində bu sanksiya layihəsinin qəbulu Rusiyanın və prezident Vladimir Putinin maraqlarına xidmət edərdi. Çünki sanksiya qərarının veriləcəyi halda ABŞ-ın regionda strateji tərəfdaşı olan Azərbaycanın vəziyyəti pisləşəcək, Kremlə yaxın "beşinci kolon" prezident İlham Əliyevin manevr imkanlarını kifayət qədər məhdudlaşdırmaq şansı əldə edəcək.

Məlumatda daha bir sensasion iddia da yer alıb. Bildirilir ki, əslində bu sanksiya layihəsinin gündəmə gəlməsi üçün Rusiya kəşfiyyatı da "işləyib". Rusiya dolayi yolla rəsmi Bakının "cığallıqları" ilə bağlı Vaşinqtona məlumatlar ötürərək, Bakıdakı rəsmilərə qarşı sanksiya layihəsinin qəbulunda maraqlı olduqlarını bürüzə veriblər.

Mənbənin iddiasına görə, Rusiyanın bu məsələdə maraqlı olmasını Mərkəzi Kəşfiyyat İdarəsi də təsdiqləyib və bu barədə həm Konqresə, həm də Ağ Evə məruzə təqdim edib. Qaynağımız iddia edib ki, Konqresdəki təsirli fiqurlarla, o cümlədən müəlliflə sanksiya layihəsini tam gündəmdən çıxarmamaq, amma hazırkı mərhələdə "arxivə" göndərməklə bağlı anlaşma əldə olunub. Qeyd olunur ki, Azərbaycan hakimiyyəti ilə daha geniş münasibətlərin qurulmasında maraqlı olan, hətta göründüyü kimi, rəsmi Bakıya lobbiçilik edən Pentaqon Ağ Evdən prezident İlham Əliyevə daha ciddi dəstək verilməsini və etimad göstərilməsinin istəyir. Pentaqon hesab edir ki, prezident İlham Əliyev neftin yaratdığı böhrana baxmayaraq ölkəsində stabilliyi qorumağa nail olub və mövqeləri möhkəmdir. Bu səbəbdən də Pentaqon rəhbərliyi yaxın illərdə də İlham Əliyevin hakimiyyətdə qala biləcəyini proqnozlaşdırıb və bu səbəbdən də Ağ Ev administrasiyasının "daha çıxarlı" siyasət yürütməyə razı salıb.

Daha bir sensasion təfərrüat da var; məlumatda iddia olunur ki, Azərbaycan prezidentinin Nyü-Yorka səfəri zamanı ona "yeni xətt üzrə tərəfdaşlıq" təklif ediləcəyi gözlənilir. Bildirilir ki, Qərb dairələri indi Azərbaycan prezidentini regionda ən ciddi tərəfdaş hesab edir; bu da təsadüfi deyil: "Gürcüstanın siyasi rəhbərliyi Mixail Saakaşvilidən sonra qeyri-müəyyən , Azərbaycan rəhbəri isə ardıcıl və balanslaşmış siyasət yürüdür. Bu səbəbdən də regionda Qərbin maraqlarını təmin edən siyasi və iqtisadi layihələrə 2016-2017-ci illərdə nəzarət İlham Əliyevə veriləcək. Bu iki il ərzində Qərblə İlham Əliyev arasında tərəfdaşlıq daha da güclənərsə, o zaman bu nəzarət mexanizmi daha da geniş sferani əhatə edə bilər",- deyə, sensasion məlumatda bildirilir.

Qaynağımız Qərbin Azərbaycan, Gürcüstan, Ukrayna və Türkiyə prezidentlərinin birgə görüşünün reallaşmasına çalışdığını da deyib. Xəbərdə bildirilir ki, ayrı-ayrılıqda Rusiya aqressiyasını üzərində hiss edən bu ölkələrin ticari-siyasi əməkdaşlığına Qərb tam dəstək vermək niyyətindədir və belə bir görüşün ilk olaraq Bakıda keçirilməsini istəyir.

Qeyd edək ki, gələn ay - aprelin 25-26-da Bakıda mədəniyyətlərarası dialoqla bağlı geniş tədbir keçiriləcək. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevlə Ankaradakı görüşündə bu tədbirə gələcəyinin deyib. Gözlənilir ki, Ukrayna prezidenti Pyotr Poroşenko və Gürcüstanın dövlət başçısı da həmin vaxt Bakıya gələcəklər...

**Sensasion məlumatlarla bağlı əlavə xəbər və şərhləri gələn sayımızda dərc edəcəyik.**

❑ **"Yeni Müsavat"**

# Bu gün Milli Məclisdə fövqəladə nüvə müzakirələri olacaq

## "Nüvə materiallarının fiziki mühafizəsi haqqında" Konvensiyanın ratifikasiyası haqqında qanun layihəsi müzakirəyə çıxarılacaq

**Martın 18-də Milli Məclisin xüsusi iclası keçiriləcək. Qeyd edək ki, bu, 2016-cı ildə parlamentin ikinci xüsusi toplantısıdır. Bundan əvvəl qış tətili günlərində də prezidentin tapşırığı ilə parlament fövqəladə toplantı keçirib antiböhran tədbirlərini özündə ehtiva edən bir sıra qanunları qəbul etmişdi.**



Budəfəki toplantıda isə "Nüvə materiallarının fiziki mühafizəsi haqqında" Konvensiyanın ratifikasiyası haqqında qanun layihəsi müzakirəyə çıxarılacaq.

Aldığımız məlumata görə, qarşıdan Novruz tətili gəldiyi üçün parlament xüsusi iclasın keçirilməsinə qərar verib. Parlamentin növbəti plenar iclası aprelin 5-də keçiriləcək.

Xatırladaq ki, yaxın günlərdə prezident İlham Əliyevin ABŞ-a səfəri nəzərdə tutulub. Bu səfərdə isə nüvə məsələləri müzakirəyə çıxarılacaq. Azərbaycan prezidenti martın 31-də Vaşinqtonda keçiriləcək nüvə təhlükəsizliyi sammitində iştirak edəcək. Qeyd edək ki, ABŞ prezidenti Barak Obama dekabrın 3-də Azərbaycan prezidenti İlham Əliyevə bu il martın sonunda Vaşinqtonda keçiriləcək IV nüvə təhlükəsizliyi sammitində iştirak üçün dəvət məktubu göndərib. Amerika lideri məktubunda qeyd edib ki, Azərbaycan qlobal nüvə təhlükəsizliyinə qətiyyətli dəstək nümayiş etdirir və Bakının bu istiqamətdə səylərini davam etdirəcəyinə ümid ifadə edib.

Siyasi təhlilçilər prezidentin ABŞ-a səfərini Azərbaycanın ABŞ və Qərblə münasibətlərinin inkişafı, problemlərin həlli baxımından mühüm hadisə kimi dəyərləndirir. Sammit çərçivəsində Azərbaycan və ABŞ liderlərinin görüşünün baş tutacağı da şübhə doğurmur. Bu mənada Azərbaycan parlamentinin prezidentin səfərinə öz tərəfindən töhfə verməsi təqdirəlayiq hesab edilir.

❑ **ELŞAD**

# Azərbaycan Qafqazda Qərbin əsas müttəfiqinə çevrilir

## Sülhəddin Əkbər: "Azərbaycan həm ABŞ-ın, həm Avropa Birliyinin Mərkəzi Asiyaya açılan qapısıdır"

**Dünyada və regionda geopolitik, geoekonomik gərginlik artdıqca Cənubi Qafqazda Qərbin əsas müttəfiqinin Azərbaycan olduğu, Qərbin Azərbaycanı özünə daha da yaxınlaşdırmaq istəyində olduğu ortaya çıxmaqdadır. Cənubi Qafqazın üç ölkəsi sırasında Ermənistanın durumu aydındır-bu ölkə Rusiyanın tam olaraq nəzarətindədir və əslində müstəqilliyi formaldır. Bu baxımdan Qərb istəsə də, Ermənistanı özünə müttəfiq edə bilməz.**



Gürcüstan Mixail Saakaşvilinin prezidentliyi zamanında birmənalı olaraq Qərbin regionda ən yaxın müttəfiqi statusundaydısa, hazırkı hakimiyyət ənənəni pozmuş hesab edilir. Gürcüstanın indiki prezidentinin Saakaşvili kimi qətiyyətli olmaması, Gürcüstanda əsas söz sahibinin Rusiyaya bağlı olan keçmiş baş nazir, milyarder Bidzina İvanaşvili olması, hökumətin son zamanlar Rusiyaya doğru addımlar atması Qərbin Gürcüstana da əsas müttəfiq kimi yanaşmasında tormozlayıcı amillər sayılır.

Beləliklə, gözlər Azərbaycana dikilir və Azərbaycan prezidentinin müstəqil, balanslaşdırılmış siyasət yürütməsinin ölkənin etibar edilməli müttəfiq olduğu mənzərəsi ortaya çıxır.

Bu mövzuda "Yeni Müsavat"a danışan **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Azərbaycan ərazisinə, əhalisinin sayına, eyni zamanda potensialına, xüsusən də İranla Rusiya arasındakı coğrafi mövqeyinə görə Qərbin marağındadır. Mərkəzi Asiya və Əfqanıstana gedən yollar da Azərbaycan üzərindən keçir. Azərbaycan həm ABŞ-ın, həm Avropa Birliyinin Mərkəzi Asiyaya açılan qapısıdır. O baxımdan Azərbaycanın Qərb üçün əhəmiyyəti böyükdür. Qərb Qafqaz regionunda Azərbaycanı özünün əsasa müttəfiqi statusuna qalxmasında maraqlıdır: "Bir tərəfdən ABŞ, Avropa Birliyi, digər tərəfdən də Rusiyanın həm qlobal, həm regional geopolitik qarşıdurması həlledici mərhələyə daxil olub. Öncəlik Rusiyaya verildiyinə görə Rusiyanın ətrafındakı ölkələrlə yumşaq münasibət qurulmağa çalışılır. Belarusla Avropa Birliyi arasında olan münasibətlərin hazırkı səviyyəsinə diqqət edin. Belarusa tətbiq olunan sanksiyalar götürülüb və bu ölkə ilə münasibətlər inkişaf etdirilir. O cümlədən Azərbaycanla münasibətlərdə yumşalma xətti götürülüb və demokratiya, insan haqları sahəsindəki vəziyyət arxa plana keçib. Çünki daha üst səviyyəli maraqlar var. Daha üst səviyyəli maraqlar geopolitik, geostrateji, geoekonomik maraqlardır. Ona görə də son vaxtlar Azərbaycana Qərbin diqqəti son zamanlar artıb. Bir tərəfdən Azərbaycanda iqtisadi böhran olduğunu bilirlər, Azərbaycana yardım təklif olunur, Azərbaycanın bu yardıma ehtiyacı var. Yardımla bərabər Azərbaycandan demokratik islahatlar tələb olunur. Azərbaycan hakimiyyəti isə hələlik buna getmək istəmir. Amma buna baxmayaraq geoekonomik sahədə, qlobal regional layihələrin inkişafında Qərbdən Azərbaycana müttəfiqlik səviyyəsində dəstək verilir. Bakı-Tiflis-Qars dəmiryolunun işə düşməsi, TANAP layihəsinin sürətlənməsi, TAP-ın təsdiqlənməsi, hətta İranla Azərbaycan arasında enerji nəqliyyat ticarət layihələrinin inkişafı sahəsində aparılan danışıqlarda da səssiz bir razılıq var".

**S.Əkbər vurğuladı ki, Azərbaycanın Rusiyaya olan ehtiyacının azaldılması, Azərbaycanın dolayısı ilə qorunması baxımından ölkəmizə Qərbdən bir əl uzadılıb. Rəsmi Bakı bu fürsəti düzgün qiymətləndirməlidir**: "Nəhayət ölkədə ilk növbədə demokratiya və insan haqları sahəsində addımlar atılmalıdır, xüsusən də siyasi məhbus məsələsi birdəfəlik həll olunmalıdır. Eyni zamanda ölkədə yaranmış sistem böhranından çıxmaq üçün köklü ardıcıl islahatlar aparılmalıdır. Hazırkı hökumət komandası ilə bu islahatların aparılması qeyri-mümkündür. Bunu anlamaq lazımdır. İslahatçı-texnokrat bir hökumət qurulmalıdır, erkən parlament seçkiləri keçirilməlidir. Bütün bu və digər addımlar atılacağı halda Azərbaycan Qərbin ən yüksək səviyyədə dəstəkləyəcəyi regional müttəfiqi statusuna yüksələ bilər. Odur ki, Azərbaycan hakimiyyəti yaranmış geopolitik konyukturadan istifadə edərək yenidən ABŞ-la, Avropa Birliyi ilə, NATO ilə münasibətləri ciddi şəkildə bərpa eləməlidir".

**S.Əkbər Azərbaycan prezidentinin Türkiyəyə bir neçə gün öncə həyata keçən səfərinin də dolayısı ilə olsa da Qərbə istiqamətin bir xətti olduğunu dedi**: "İstənilən halda Türkiyə ilə yaxınlaşma dolayısı ilə ABŞ-la, Qərblə də yaxınlaşma üçün daha əlverişli şərait yaradır. Çünki Türkiyə NATO-nun üzvüdür, Avropa Birliyi üzvlüyünə namizəddir, ABŞ-la da sıx münasibətlərdədir. O baxımdan bəli, birbaşa olmasa da dolayısı ilə Türkiyə ilə yaxınlaşma, həm də Qərbə yaxınlaşmadır. Bu, Qərbdən daha çox Azərbaycana lazımdır. Azərbaycanın müstəqilliyinin, suverenliyinin möhkəmlənməsi, ərazi bütövlüyünün bərpa edilməsi Rusiyanın regionda dominant gücünün neytrallaşdırılması olmadan, güc nisbətindəki disbalansın ortadan qaldırılması olmadan mümkün deyil. Bu disbalansı da hansı qüvvə ortadan qaldıra bilər? ABŞ, Avropa Birliyi və NATO".

❑ **Etibar SEYİDAĞA**



# "Azərbaycan Türkiyədən heç vaxt imtina etməyəcək"

## Prezident İlham Əliyev Ankaraya həm də Putinlə bağlı mesaj çatdırıb? **Rusiyalı tanınmış politoloq:** "İki ölkə arasında davam edən hərbi təlimlər öz-özlüyündə hər şeyi deyir..."

**Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə son səfəri və onun yekunları siyasi şərhçilərin diqqət mərkəzindədir. Səfərə təsadüf edən regional şərtlər, ələlxüsus da Əliyevin qardaş ölkə üçün yetərincə mürəkkəb bir durumda Ankara gedərək Türkiyə xalqı ilə yerindəcə həmrəylik nümayiş etdirməsi, orada imzalanan mühüm sənədlər və keçirilən toplantı, nəhayət verilən ortaq mesajlar gözlənildiyi kimi, dərindən təhlil edilməkdədir.**

## Qriqori Trofimçuk: "Kreml də gec-tez "Bakı, yoxsa İrəvan" seçimini etməli olacaq"

Onu da qeyd eləmək zərurəti var ki, Azərbaycanın dövlət başçısı Rusiya prezidenti Vladimir Putinlə son məlum telefon danışıqları və İran səfərindən sonra türkiyəli həmkarı ilə tet-a-tet danışmamışdı. Bakı bu ərəfədə həmçinin, Rusiya və Avropa Birliyindən yüksək çinli emissarları qəbul eləmişdi. İstisna deyil ki, prezident Əliyev həm də bu mövzulardan dolayı Ankaraya, türkiyəli həmkarına müəyyən vacib çatdırışlar edib.

***

"Avropa Birliyi və Rusiyadan Bakıya "emissar axını"nın güclənməsi ondan xəbər verir ki, Azərbaycanın mövqeyi dünyanın bu hissəsində hadisələrin inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edir - üstəlik, elə bir vaxtda ki, bu mövqe dünya güc mərkəzlərinin energetika, nəqliyyat və infrastruktur sahələri üzrə strategiyası ilə birbaşa əlaqəlidir. Qərbin Azərbaycanın resurslarından istifadə edərək, Avropanın ehtiyaclarını Rusiyadan yan keçməklə ödəmək və Rusiyanın blokadası üçün yararlanmaq istəyi də unudulmamalıdır".

Bu sözləri rusiyalı tanınmış ekspert Qriqori Trofimçuk rusdilli vesti.az saytına müsahibəsində deyib: **"Rusiya tərəfindən bütün bu aktivliyin pərdəarxasında Azərbaycan-Türkiyə əlaqələri ilə bağlı problem də dayanmaya bilməz - hansı əlaqələr ki, Cənubi Qafqaz və Xəzər-Qara dəniz zonasında situasiyaya təsir edir və xüsusən də yaxın perspektiv üçün təsir edəcək. Ancaq buradaca vurğulamaq lazımdır ki, ikitərəfli Rusiya-Azərbaycan danışıqları çərçivəsində nə deyilməsindən asılı olmayaraq, Bakı Türkiyə qarşısında öhdəliklərindən heç vaxt imtina etməyəcək. Türkiyə ilə Azərbaycan arasında davam edən hərbi təlimlər öz-özlüyündə hər şeyi deyir. Odur ki, Rusiya ilə Azərbaycan hökumətləri arasında cari danışıqlarda heç bir xüsusi gizlin yoxdur. Bakının özünün əsas hədəfi bütün bu incə (həm də artıq olduqca təhlükəli) xətlər üzərində bacardıqca, nə qədər mümkünsə, uzun müddət balans yaratmaqdır"**.

Politoloqun sözlərinə görə, Azərbaycanın Rusiyaya ünvanlandığı və Ermənistana silah-sursat verilməsi ilə bağlı etiraz notası təkcə ilk yox, həm də belə bir format üçün test addımıdır. **"Bakı təbii ki, bu addıma böyük praktik ümidlər bəsləmirdi - xüsusən də Ermənistanın geriyə "silahsızlaşdırılması" ilə bağlı. Ancaq bu, notanın hədəfinə də daxil deyildi. Silahlanma yetərincə bərabər həyata keçirilib və indi ikitərəfli münasibətlərdə istənilən böhran tam məntiqli olaraq yeni və xaraktercə daha sərt tələblərlə müşayiət oluna bilər"** - qeyd edib ekspert.

Rusiyalı analitik hesab edir ki, Bakının Moskvaya birinci etiraz notasının "qradusu" daha sərt də ola bilərdi. **"Ancaq iş ondadır ki, Rusiya hər iki ölkəyə - həm Ermənistana, həm də Azərbaycana silah təklif edir, verir. Onu da nəzərə almaq lazımdır ki, regional və qlobal konfliktlərin bundan sonrakı inkişafı Rusiyanın özünü də məcbur edəcək ki, Bakı və İrəvana kömək edilməsi formatında öz mövqeyini dəqiqləşdirsin - onlardan hansısa birini kənara qoymaqla. Təkcə Azərbaycan üçün deyil, Rusiya üçün də çoxvektorlu siyasət spektri sürətlə daralmaqdadır"** - əlavə edib politoloq.

❑ **Siyasət şöbəsi**

# Putin Suriya əməliyyatı haqda danışdı və hədələdi

## "Cəmi bir neçə saata..."

**Rusiya prezidenti Vladimir Putin martın 17-də hərbçilər qarşısında Suriyada keçirilən əməliyyatın nəticələri haqda danışıb və yeni müdaxilə ilə hədələyib.**

Virtualaz.org Rusiya KİV-lərinə istinadən xəbər verir ki, Putin Suriya əməliyyatlarının 33 milyard rubla başa gəldiyini, bu vəsaitin Müdafiə Nazirliyinin büdcəsində əvvəlcədən hərbi hazırlıq və təlimlərin keçirilməsi üçün nəzərdə tutulan vəsaitdən yönəldildiyini deyib.

**"Əlbəttə, Suriyadakı hərbi əməliyyatlar müəyyən xərclər tələb edib, ancaq bu vəsaitin əsas hissəsi Müdafiə Nazirliyinin pulları idi. Əlbəttə, gələcəkdə daha çox xərcə düşməmək üçün bu əməliyyatlar müəyyən xərc tələb edirdi. Ancaq Suriyadakı əməliyyatlara çəkilən xərclər özünü tamamilə doğruldub"** - deyə, Putin Suriya əməliyyatlarında iştirak etmiş hərbçilər qarşısında çıxışı zamanı bildirib.



Rusiya prezidenti deyib ki, Moskva bundan sonra da Suriyada Bəşər Əsədə kömək edəcək. Bu kömək kəşfiyyat və məlumat dəstəyi formasında davam edəcək. O cümlədən kosmosdan kəşfiyyat dəstəyi göstəriləcək. Habelə Putin S-400 və "Pantsir-F" zenit-raket komplekslərinin Suriyada döyüş növbəsini davam etdirəcəyini deyib.

O, qeyd edib ki, Rusiya hərbçiləri Suriyadakı hərbçilərinə qarşı istənilən hücumu dəf edəcək. **"Bizim HHM sistemlərimiz Rusiya hərbçiləri üçün təhdid kimi qəbul ediləcək istənilən hədəfə qarşı tətbiq ediləcək. Bir daha qeyd etmək istəyirəm-istənilən hədəflərə!"**-Putin bildirib.

**"Əgər tələb olunacaqsa, Rusiya cəmi bir neçə saat ərzində regiondakı hərbi qruplaşmasını yaranmış situasiyaya uyğun ölçülərdə artırmaq imkanındadır və bu zaman biz əlimizdə olan bütün imkanlardan istifadə etməyə hazırıq"** deyə, Putin əlavə edib.

Rusiya prezidenti vurğulayıb ki, hərbi qüvvələrin Suriyadan çıxarılması planı barədə Bəşər Əsəd əvvəlcədən məlumatlandırılmışdı və plan razılaşdırılmışdı. Və Bəşər Əsəd də bu planı dəstəkləyib. Putinin sözlərinə görə, Suriya əməliyyatlarında qarşıya qoyulmuş vəzifə "terrorçularla mübarizə və onların Rusiya ərazisinə keçməsinin qarşısının alınması" olub. Və bu vəzifə əsasən yerinə yetirilib. **"Biz əvvəlcədən birbaşa demişdik ki, Suriyadaxili münaqişəyə qarışmaq fikrimiz yoxdur"** - Putin vurğulayıb.

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

# Yay vaxtına keçid ləğv olundu

## Hökumət bu məsələdə nə qədər qazanacaq?



**Azərbaycanda yay vaxtına keçid bu il ləğv olundu. Nazirlər Kabinetinin 17 mart tarixli 131 saylı Qərarına əsasən, carı ilin 27 mart tarixində (bazar günü) ölkə ərazisində yay vaxtına keçid ləğv olunur. Belə ki, AMEA-nın Rəyasət Heyəti ölkəmizdə yay və qış vaxtlarına keçid bir sıra tibbi-psixoloji və sosial-mənəvi problemlərin yaranmasına və İKT sistemlərinin qəbul olunmuş beynəlxalq vaxt qrafiki ilə sinxronlaşdırılması sahəsində bəzi çətinliklərin meydana gəlməsini nəzərə alaraq, yay və qış vaxtlarına keçid praktikasının ləğv edilməsini təklif edib. Beləliklə, Nazirlər Kabinetinin 17 mart 1997-ci il tarixli 21 saylı Qərarı qüvvədən düşmüş hesab edilir. Həmin qərara əsasən hər il oktyabrın son bazar günündə ölkə ərazisində qış, martın son bazar günündə isə yay vaxtına keçilirdi.**

Bəs hökumət bu qərardan nə qədər qazanacaq? Qərarın ölkə iqtisadiyyatına nə kimi mənfi və ya müsbət təsirləri ola bilər?

Qeyd edək ki, bundan öncə ekspertlər saatların geri çəkilməsi ilə həmin müddət ərzində ölkədə enerji sərfinə müəyyən qədər qənaət edildiyini, xidmət sektorunda çalışan müəssisələrin gəlirlərinin artmasına təsir göstərdiyini, aqrar sektorun bu məsələdə qazandığını iddia edirdilər.

**İqtisadçı Natiq Cəfərli**nin sözlərinə görə isə ölkəmizdə bu məsələ ilə bağlı hələ ki, heç bir qurum tərəfindən ciddi araşdırma aparılmayıb: “Amma böyük, qonşu ölkələrdə, xüsusən Türkiyədə 6 aydan bir təqribən bir milyard dollara yaxın enerjiyə qənaət oluna biləcəyi barədə araşdırmalar var idi. Azərbaycanda isə belə bir araşdırma yoxdur. Düşünürəm ki, iqtisadiyyata yay və qış vaxtına keçidin elə bir ciddi təsiri də yox idi. Əksinə, mənfi təsirləri ola bilərdi, o mənada ki, insanların psixoloji durumu çətinləşəndə, buna uyğunlaşması vaxt aparanda iş qabiliyyəti də aşağı düşürdü. İş qabiliyyətinin aşağı düşməsi insanlarda diskomfort yaradırdı və bunun iqtisadiyyata da öz təsiri ola bilərdi”.

**Natiq Cəfərli yay vaxtına keçidin ləğv olunmasının doğru atılmış qərar olduğunu dedi:** “Ən azı ona görə ki, yay, qış vaxtına keçidin insanlara psixoloji təsiri olduğu barədə dünyada kifayət qədər böyük araşdırmalar olub”.

❑ **Xalidə GƏRAY**
❑ **Musavat.com**

# AZAL: Martın 27-dən uçuşlar bir saat tez yerinə yetiriləcək




**Nazirlər Kabinetinin yay vaxtına keçidin ləğv olunması ilə bağlı qərarı ilə əlaqədar olaraq 27 mart 2016-cı il tarixindən etibarən “Azərbaycan Hava Yolları” (AZAL) aviaşirkətinin uçuş cədvəlinə düzəliş olunacaq.**

AZAL-ın mətbuat xidmətindən “APA-Economics”ə verilən məlumata görə, təyinat məntəqələrinə nəzərdə tutulan vaxtda çatmaq və vaxtında transfer məqsədilə, aviaşirkətin bütün beynəlxalq aviareysləri Azərbaycanın hava limanlarından artıq alınmış aviabiletlərdə göstərilən vaxtdan bir saat tez uçacaq.

Heydər Əliyev Beynəlxalq Hava Limanı AZAL-ın martın 26-dan sonra olan reyslərinə aviabilet alan bütün sərnişinlərdən aviabiletdə göstərilən uçuş vaxtından 3 saat öncə qeydiyyat üçün hava limanına gəlməyi xahiş edir.

AZAL-ın bütün qurumları sərnişinlərin vaxtında təyyarəyə minməsini təmin etmək üçün gücləndirilmiş rejimdə işləyəcək.

Hər hansı bir sual yarandığı təqdirdə (+99412) 598-88-80 və ya *8880 telefon nömrələri ilə əlaqə saxlamaq, və ya callcenter@azal.az ailto:callcenter@azal.az elektron poçtuna yazmaq xahiş olunur.



# Azərbaycan böyük tətilə gedir-yenə Gürcüstana...

## Natiq Cəfərli: “Gələn turistlər əllərindəki pulu harada dəyişməsi ilə bağlı problemlər yaşayacaq”

## Fazil Mustafa: “Bu, Azərbaycandakı korrupsiyanın qələbəsidir”

**Novruz bayramı ilə əlaqədar ölkəmizdə 8 gün iş olmayacaq. Yəni mat ayının 20-28-dək qeyri-iş günləridir. Azərbaycanda Novruz bayramının daha təmtəraqlı və gözəl keçirilməsinə baxmayaraq, bir çox vətəndaşlarımız bu günləri Gürcüstanda keçirməyə üstünlük verir. Hər il Gürcüstana azı 1 milyon azərbaycanlı turist gedir. Bu ölkəyə yollanan turistlərin sayına görə Azərbaycan ilk üçlüyə daxildir. Əhalisinin sayı 80 milyona çatan Türkiyədən Gürcüstana 1,5 milyon turist gəlir. Azərbaycanın isə hər 9 nəfərindən biri qonşu ölkəni ziyarət edir. Ümumiyyətlə isə son vaxtlar Azərbaycanın turizm sektoru aşağı səviyyəyə düşüb. Əvvəllər iranlı turistlər Novruz bayramını ölkəmizdə keçirməyə üstünlük verirdilər. İndi isə iranlı turistlərə də rast gəlmək mümkün deyil.**

*Maraqlıdır, nəyə görə Novruzu ölkəmizdə qeyd etməyə gələnlər yoxdur? Biz nəyə görə Gürcüstana üz tuturuq?*

**“FlyTravel” turizm şirkətinin direktoru Məmməd Əliyev** yerli turistlərin Gürcüstana üz tutmasının səbəbinin ucuzluq olduğunu dedi: “İnsanların Gürcüstana üz tutmasının səbəbi ucuzluqdur. Bizə müraciət edənlər deyirlər ki, Gürcüstanda gedib hansısa yaxşı bir restoranda 5 nəfər oturub yeyib- içirik və bütün bunlara 50 dollar pulumuz çıxır. Bakıda isə 150 dollar çıxır. Yadımdadır ki, neçə illər əvvəl həmişə Novruz bayramı ərəfəsində iranlılar Bakıya gəlir və ev götürürdülər. Küçələrdə iranlılara çox rast gəlinirdi. Hotel tapa bilməyəndə biz onlara ev verirdik. Bir ailə 100 manatdan 3 otaqlı ev götürürdü. İndi isə iranlılara da rast gəlmirik. Çünki gələn iranlıları gömrükdə 5-8 saat saxlayırlar. Bura da gəlib çatanda bahalıq iranlıları Azərbaycandan soyutdu. Həmişə iranlılar Novruz bayramına 15 gün qalmışdan ev, hotel tuturdular ki, gələndə qala bilsinlər. İndi heç biri yoxdur, gəlmirlər. Bunların da ən əsas səbəbi bahalıqdır. Gürcüstanla Azərbaycandakı bir hoteli müqayisə etsəniz görəcəksiniz ki, çox böyük qiymət fərqi var. Həmçinin restoranlarımızda da qiymətlər Gürcüstan restoranları və əyləncə yerləri ilə müqayisədə yarıbayarı bahadır. Ona görə də insanlar burada 500-1000 manat xərcləməkdənsə, gedib orada bu məbləğin yarısı qədər xərcləyir və daha yaxşı istirahət edirlər. Gürcüstandan Azərbaycana gələn turist cibinə 300 dollar qoyub gəlib onu burada bir günə xərcləyirsə, orada iki-üç günə xərcləyir”.

**M.Əliyev Azərbaycandakı hotellərlə Gürcüstandakı hotellər arasında yarıbayarı qiymət fərqi olduğunu dedi:** “Bizdə ən ucuz hotel ”Araz”dır. İki nəfər üçün 60 dollardır. Gürcüstanın ən məşhur küçəsində üçulduzlu hotel, yemək içməkləri də buradan qat-qat yuxarı olan hotellər 30-40 dollardır. Bu qiymətə turistlər yaxşı əylənir, bayramı daha ucuz qiymətə keçirə bilirlər. Orada benzin bizdən bahadır, amma taksiləri bizim taksilərdən ucuz qiymətə aparır. Bizdə nə qədər ki, qiymətlər bu cürdür turizm heç vaxt inkişaf etməyəcək. İranlıların da hamısı indi Bakıya gəlmir, Dubaya, Gürcüstana, Türkiyəyə gedirlər. Elə bizim təyyarələrimiz də bahadır. Öz maşını ilə gələnlərin də gömrükdə başına elə oyun açırlar ki, bura gələndə ağlayırdılar ki, nahaq gəldik. Bundan əlavə də iranlılar gəlib burada bara-restorana gedəndə başlarına oyun açırlar. Ona görə də gəlmirlər".

**İqtisadçı ekspert Natiq Cəfərli** turistlər üçün ən böyük problemlərdən birinin 8 gün bankların işləməməsi olacağını dedi: “Yerli turistlərin bayram ərəfəsində Gürcüstana üz tutmasının bir çox səbəbləri ola bilər. Gürcüstandakı bütün sahələrdə, həm hotellərdə, həm də restoranlarda qiymətlərin ucuz olması, şəhərin özündə maraqlı proqramların olması insanlar üçün müəyyən marşrutların müəyyənləşdirilməsi, tarixi yerlərin ziyarət olunması turistləri cəlb edir. Turist həmişə maraqlı proqramların dalınca qaçır. Azərbaycanda qiymətlər də bahadır. Təyyarə biletlərinin qiyməti bahadır və viza problemi var. Gürcüstan 100-də çox ölkə ilə viza məsələsini ləğv edib. Bu yaxınlarda İran turistlərinin cəlb edilməsini sürətləndirmək üçün bu adımı atdı. Azərbaycanda isə İran turistlərinə də viza tətbiq olunur. Azərbaycanda cəlb olunacaq turistlər üçün son dövrlərdə digər problemlər də meydana çıxıb. Məsələn, bayram günlərində bütün valyutadəyişmə məntəqələri bağlı olacaq. Turist Azərbaycana gələndə manatla yox, öz valyutaları, dollarla gəlir. Onlar öz valyutalarını harada çevirib öz xərcləmələrini edəcəklər? Kartla alış-veriş etməkdə də problemlər var. Gürcüstanın ən balaca dükanından tutmuş marketlərinə qədər, kiçik kafelərindən tutmuş restoranlarına qədər hər yerdə kartla alış-veriş, ödənişlər etmək mümkündür. Azərbaycanda isə bu problemdir. Bir çox problemlər üst-üstə yığışır və nəticə etibarı ilə azərbaycanlıların özlərinin də bayram günlərini ölkə daxilində yox, xaricdə, çox vaxtda Gürcüstanda keçirir”.

**Deputat Fazil Mustafa** bildirdi ki, təklif olunan xidmətlər heç kimi qane etməyəndə axın başqa istiqamətə gedir. “Bu, Azərbaycandakı korrupsiyanın qələbəsidir. Çünki birbaşa istər turizm, istərsə də başqa sahə olsun korrupsiyanın səviyyəsi ona imkan verir ki, bu məsələdə insanlar müəyyən dərəcədə öz maddi imkanlarına görə seçim etsinlər. Turizm ilk növbədə xidmət və qiymətlərin bahalığı ilə bağlıdır. Təklif olunan xidmətlər heç kimi qane etməyəndə axın başqa istiqamətə gedir. Ona görə də burada təəccüblü heç nə yoxdur. Bu məsələdə kimisə qınamaq da olmaz. İnsanlar vətənpərvərliklə deyil, ancaq maddi imkanla müəyyən addımlar ata bilərlər. Bu da gözlənilən bir şeydir. Əks halda, bu məsələ başqa cür həll olardı və Azərbaycan daha böyük turizm cəlb edərdi. Təəssüf ki, bunu düşünmədən müəyyən iqtisadi yanlışları davam etdirməyin nəticəsi belə bir vəziyyəti yaradıb. Burada yalnız qiymətlərin aşağı enməsindən söhbət getmir. Bütövlükdə bütün sektorların əhalini cəlb etməsindən gedir. Yolda duran polisdən başlamış gömrük, vergidə daxil olmaqla kiçik strukturlara qədər bu prosesdə üzərinə düşən rolu yerinə yetirməsindən söhbət gedir. Stimullaşdırıcı bir vəziyyət olmayanda adamlar hər hansısa bir şəkildə işləməyə, yaxud da qiyməti aşağı salmağa meylli olmurlar. Ona görə də turist Gürcüstana qaçır”.

❑ **Günel MANAFLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Avropa Birliyi Qarabağ təşəbbüskarlığını gücləndirir

**Xüsusi nümayəndə:** "Azərbaycanla bağlanacaq yeni sazişdə Dağlıq Qarabağ məsələsi də əksini tapacaq"; Moskva təşəbbüskarlığı əldə saxlamaq üçün nə edəcək? **Ermənistanda həyəcan:** "Rusiya Bakını itirməməkdən ötrü Qarabağı qaytara bilər..."

**Türkiyə Azərbaycanın, Rusiya isə işğalçı Ermənistanın 1 nömrəli və sınanmış müttəfiqləri olaraq qalır. Diqqət çəkən məqamlardan biri də odur ki, cəmi bir neçə günlük fasilə ilə az öncə prezident İlham Əliyev Türkiyəyə, Ermənistan başçısı isə Rusiyaya səfər elədilər. Əliyev Ərdoğanla, Sərkisyan isə Putinlə bir araya gəldilər.**





**Lakin siyasi təhlilçilər İlham Əliyevin Ankara səfərini daha məzmunlu və önəmli hesab edir, nəinki Sərkisyanın Moskva səfərini. Bəs iki səfər və onlar çərçivəsində səslənən bəyanatlar Dağlıq Qarabağ problemi ətrafındakı situasiyaya hansı təsirləri göstərə bilər? Politoloqların bu yöndə fikirləri maraqlıdır.**

"Moskvaya səfər edən Ermənistan Prezidenti Serj Sərkisyan Rusiyadan əliboş qayıdıb". Bunu politoloq Rasim Musabəyov deyib. Ekspert Ankarada baş tutan Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının siyasi əhəmiyyətinə işıq salaraq deyib: "Bu görüş iki qardaş ölkənin sarsılmaz müttəfiqliyinin bir daha əyani nümayişi idi. Tərəflər regionda və dünyadakı vəziyyətlə bağlı məsləhətləşmələr apardılar, eyni zamanda TANAP layihəsinin sürətləndirilməsi və Bakı-Tiflis-Qars dəmiryolunun ilin sonunadək tamamlanması barədə razılığa gəliblər. Dəyəri milyardlarla ölçülən bu layihələr regionla yanaşı, dünya üçün də əhəmiyyətlidir. İki ölkə hökuməti arasında hərbi əlaqələrin inteqrasiyası, həmçinin, iqtisadiyyatın həcminin 20 milyard dollara çatdırılması qarşıya qoyulan əsas vəzifələrdir. Prezident İlham Əliyev Ankarada çox səmimi qarşılandı. Ancaq bu yaxınlarda Moskvaya səfər edən Ermənistan Prezidenti Serj Sərkisyan Rusiyadan əliboş qayıtdı. Ermənilər bu dəfə yeni kredit, investisiya, qazın qiymətində güzəşt istəmədilər, atom stansiyasının tikintisindən danışmağa cürət belə etmədilər. Putin Sərkisyanın erməni sərgisi və tarix muzeyinin açılışına dəvətini nəinki qulaq ardına vurdu, heç "sadiq" vassalı ilə şam yeməyinə belə ehtiyac duymadı. Zənnimcə, əlavə şərhə ehtiyac yoxdur".

***

Bu arada Ermənistanda Rusiyanın öz milli maraqları naminə forpostunu sata biləcəyindən dolayı növbəti təlaş baş qaldırıb. "Ermənistan Rusiyanın onu Azərbaycana satacağından qorxur". Erməni politoloq Stepan Qriqoryan yerli mediaya açıqlamasında bununla bağlı həyəcan təbili çalaraq xəbərdarlıqlar edib və Sərkisyan rejiminin öz siyasətində təcili dönüş etməsi təklifini irəli sürüb.

"Türkiyə mümkün Qarabağ müharibəsində Azərbaycanın qalib gəlməsi üçün əlindən gələn hər şeyi edir. Hazırda Rusiya da Azərbaycanı Türkiyənin yanından ayırmaq üçün hər şeyə hazır vəziyyətdədir. Yəni Moskva Bakının istədiyi güzəşti etməyə, əvəzində onun Avrasiya İqtisadi İttifaqına daxil olmasına nail olmağa çalışır. Azərbaycan əvvəl də bildirib ki, ittifaqa yalnız Qarabağ münaqişəsi həll edildikdən sonra daxil olacaq. Bu, Azərbaycanın şərtidir. İndiki məqamda Rusiya Azərbaycanı itirməmək üçün Qarabağ münaqişəsini Bakının xeyrinə həll etməyə hazır görünür", - deyə o iddia edib.

**Onun sözlərinə görə, Azərbaycanın Türkiyə ilə sıx şəkildə yaxınlaşması Rusiyanı bu istiqamətdə təcili nəsə etməyə məcbur edir: "Faktiki olaraq, Rusiya Azərbaycanı itirmək istəmir.** Ümumiyyətlə, bu fikri yaxına belə buraxmır və Bakıya mesaj göndərir ki, biz sizin haqqınızda düşünürük, hətta lazım olsa, Ermənistanın maraqlarını unutmağa hazırıq. Rəsmi İrəvan indi buna qarşı ciddi reaksiyalar verməlidir. Yoxsa hər şey gec olacaq".

***

**Əslində erməni ekspertin sözləri İlham Əliyevin son və uğurlu Türkiyə səfəri fonunda yetərincə aktual görünür.** Çünki bu səfər iki qardaş dövlət arasında hərbi-siyasi müttəfiqliyin yeni mərhələyə adlaması ilə yadda qalıb. Ermənistan Türkiyə-Azərbaycan müttəfiqliyindən, xüsusən də hərbi sahədə gündən-günə dərinləşən əməkdaşlığından həmişə ehtiyat edib.

Bu yaxınlıq sözsüz ki, Moskvanı da qane eləmir. Demək, Rusiyanın Azərbaycanı öz orbitində saxlamaq üçün ölkəmizə diqqəti artıracağı istisna deyil. Hər halda Ermənistan onsuz da onun ovucunun içindədir. Moskvanın Azərbaycanı öz yanında saxlaması və Avrasiya Birliyinə cəlb eləmək üçün ən güclü rıçağı isə məhz Dağlıq Qarabağ problemidir.

Ancaq Kremlin məsələnin həllində real irəliləyişə yardımçı olmaq istəyi hələ ki, görünmür. O üzdən Azərbaycan üçüncü on ildir davam edən münaqişənin həllində başqa formatlar tapmağa və status-kvonun dəyişməsinə çalışır.

**Bu barədə son olaraq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberi ilə görüşdə bir daha danışıb.** Azərbaycanla təşkilat arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldığı görüşdə nazir ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi haqqında məlumat verib, konfliktin regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olduğunu diqqətə çatdırıb.

Mövcud status kvonun qeyri-davamlı və qəbuledilməz olduğunu söyləyən Məmmədyarov əlavə edib ki, status kvonun dəyişdirilməsi və münaqişənin həlli üçün ilk növbədə Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması və Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən çıxarılmasının mühüm etimad yaradıcı tədbir olacağını qeyd edən nazir Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında təmas və dialoqun yaradılmasının vacibliyini də nəzərə çatdırıb.

***

**"Trend"ə müsahibəsində isə Herbert Salber Avropa Birliyi və Azərbaycan arasında strateji saziş üzrə danışıqların əsas mərhələsinin cari ilin yayında başa çatacağını deyib.** Onun sözlərinə görə, ikitərəfli tərəfdaşlıq üzrə yeni saziş AB-Azərbaycan əməkdaşlığının bütün aspektlərini əhatə edəcək, bundan başqa, sənəddə Dağlıq Qarabağ münaqişəsi də əksini tapacaq: "Yeni ikitərəfli saziş üzrə formal danışıqları başlamaq üçün Avropa İttifaqı iştirakçı ölkələrin icazəsini almalıdır ki, bu da mütləq ilkin şərtdir".

Xüsusi nümayəndə Azərbaycana başa çatmış səfərini müsbət qiymətləndirərək bildirib: "Biz ikitərəfli əməkdaşlığın tam spektrini, Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsini müzakirə etdik, AB nümayəndəsi Federika Moqerininin Azərbaycana səfəri zamanı əldə edilmiş razılaşmaların detallarını dəqiqləşdirdik". Selber qeyd edib ki, AB və Azərbaycan arasında münasibətlərin yaxşı inkişaf perspektivləri var: "Bu yaxınlarda Moqerininin Azərbaycana səfəri tərəflərin ikitərəfli əməkdaşlığa sadiqliyini təsdiq etdi".




Dağlıq Qarabağ münaqişəsinə gəlincə, xüsusi nümayəndəsi vurğulayıb ki, münaqişənin nizamlanmasına yalnız bu prosesdə hər iki tərəfin iştirakı ilə nail olmaq mümkündür: "Beynəlxalq ictimaiyyət münaqişənin tənzimlənməsi üzrə təkliflər irəli sürə bilər, lakin seçimi münaqişə tərəfləri etməlidir. Münaqişənin həlli üzrə danışıqlar 20 ildən artıqdır davam edir, onun nizamlanması ilə bağlı bir çox yollar təklif edilib və məsələ tərəflərin seçimindədir".

***

AB-nin xüsusi nümayəndəsinin sözlərindən belə nəticəyə gəlmək olar ki, Azərbaycanla imzalanacaq yeni əməkdaşlıq sənədində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin toxunulmazlığı birmənalı şəkildə vurğulanacaq. Əslində Azərbaycanın əsas şərtlərindən biri elə budur və ən önəmlisi, bu şərt beynəlxalq hüquq normalarına, ATƏT prinsiplərinə əsaslanır.

Başqa yandan, AB-nin qanunverici orqanı olan Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünü təsbit edən, Ermənistanı isə işğalçı kimi tanıyan, ondan işğal elədiyi ərazilərdən çıxmağı tələb edən qətnaməsi var. Bu mənada ikitərəfli əməkdaşlıq haqda yeni sənədin hazırlanmasına başlanmasını təşkilatın Qarabağ təşəbbüskarlığını gücləndirmək istəyi kimi də qəbul eləmək mümkündür.

**Maraqlıdır ki, bu təşəbbüskarlıq zaman etibarilə Ermənistanda Rusiya ilə bağlı qaldıran narahatlıqla üst-üstə düşür.** Məsələ də ondadır ki, Azərbaycanın Türkiyə ilə yanaşı, AB ilə əməkdaşlığı Moskvanı məmnun eləmir. Rusiya çox istərdi ki, Azərbaycan məhz onun dominant olduğu qurumlarda - Avrasiya Birliyi və KTMTD-də təmsil olunsun. Ancaq nəyin qarşılığında? Bakının Qarabağ şərti təmin ediləcəkmi? Doğrudanml Azərbaycanı itirməmək naminə o, Dağlıq Qarabağı Bakıya qaytaracaq?

**Hər necə olmasa, önümüzdəki dövrdə AB ilə Rusiya arasında virtual da olsa Qarabağ təşəbbüskarlığı uğrunda mübarizənin güclənəcəyini güman eləmək olar.**

# Dolların faizi qalxmadı: manat bahalaşacaqmı?

**ABŞ-ın Federal Ehtiyatlar Sistemi (FES, Mərkəzi Bankın analoqu) nəhayət, iki günlük iclasına yekun vurub. Martın 16-da keçirilən son iclasda uçot dərəcəsini 0,25-0,50faiz səviyyəsində sabit saxlamaqla bu il üçün planlaşdırılan faizlərin artım sayını 4 dəfədən 2 dəfəyə kimi azaldıb. FES iclasının nəticələrinə görə, dekabr iclasında 2016-cı ildə faizlərin 4 dəfə artımı planlaşdırılsa da, bunun sayı artıq 2-yə salınıb. FES 2016-cı il üzrə orta uçot dərəcəsi proqnozunu 1,4 faizdən 0,9 faizə, 2017-ci il üçün- 2,4 faizdən 1,9 faizə, 2018-ci il üçün isə 3,3 faizdən 3 faizə endirib.**

## Ekspertlər dolların qısa müddətdə dəyər itirəcəyini bildirirlər

**Qurumun başçısı Canet Yellen açıqlamasında qeyd edib ki, faiz dərəcələrini artırmaq imkanının olması hələ bunu həyata keçirmək mənası daşımır:** "Daha bir müddət faiz həddi uzunmüddətli orta səviyyədən aşağı qalacaq. İnflyasiya gözləntilərini isə reallıq kimi qəbul etmək üçün hələ tezdir. Baza inflyasiya göstəricisinin dayanıqlı artımına əmin olmalıyıq". C.Yellenin sözlərinə görə, FES 2-3 il ərzində inflyasiyanın hədəf olaraq 2 faizə çatacağını proqnozlaşdırıb. O, qlobal maliyyə bazarlarının və dünya iqtisadi aktivliyinin risk təşkil etdiyini vurğulayaraq, ehtiyatlı davranacaqlarını bir daha xatırladıb. Qlobal iqtisadi artımın gözləniləndən yavaş olması uçot dərəcəsini artırılmamasının əsas səbəblərindən biridir. ABŞ əmək bazarının tam yaxşılaşması üçün hələ bir qədər müşahidə aparılmalıdır. FES bundan sonra da qərarlarını iqtisadi göstəricilərə əsaslanaraq verəcək. Uçot dərəcəsinin artım sayının azaldılması kreditləşmənin sərtləşdirilməsi nəzərə alınaraq verilib.

"Report"un analitik qrupu isə hesab edir ki, FES-in qərarı və açıqlamaları qlobal iqtisadi vəziyyətin sabit inkişafı və ABŞ iqtisadiyyatından gələn məlumatların müsbət olması halında aprel ayında uçot dərəcəsinin artırılması ilə nəticələnə bilər. Aprelin 26-27-də keçiriləcək növbəti iclasa qədər qlobal maliyyə bazarlarının bir qədər müsbət inkişafı proqnozlaşdırılır. Bu tarixə qədər fond birjalarının 5 faizə yaxın artması, neft qiymətlərinin 50 dollar/barelə qədər yüksəlməsi, qızılın 1 150 dollar/unsiyaya qədər ucuzlaşması ehtimal edilir. Digər bir variantda isə FES-in uçot dərəcəsini iyunun 14-15-də keçiriləcək iclasda artırılması ehtimal edilir. Hər iki halda bu tarixlərə qədər qlobal maliyyə bazarlarının kəskin neqativ dəyişiklik göstərməyəcəyi ehtimal olunur. "Məhz yay aylarında yenidən qlobal maliyyə bazarlarının azalmaya keçəcəyi, qızılın bahalaşacağı gözlənilir. Bu proses oktyabr-noyabr aylarına qədər davam edəcək. Lakin ilin sonuna doğru maliyyə bazarlarının sabitləşməsi proqnozlaşdırılır" deyə, analitiklər qeyd ediblər.

**Rəşad Həsənov isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, FES-in qərarı Azərbaycana da təsir göstərəcək:** "FED-in toplantısında uçot dərəcəsi artırılmadı. Amma bununla yanaşı, FES başqanının çıxışından da məlum oldu ki, növbəti dövrlərdə uçot dərəcəsinin artırılması gündəmdə qalır. Amma ümumiyyətlə, götürəndə FES öz növbəsində həm ABŞ iqtisadiyyatında baş verənləri, həm dünya iqtisadiyyatında baş verənləri paralel olaraq izləyəcək və qərarlar dəyişik ola bilər. Yəni FES rəhbərinin çıxışı növbəti toplantılar üçün yeni suallar ortaya çıxarır. Daimi olaraq bu istiqamətdə risklərin olduğunu göstərir. Amma buna baxmayaraq, bir neçə gün ərzində dünya valyutalarının ABŞ dollarına qarşı müəyyən dəyər itirməsi prosesi gedirdi. Xüsusilə inkişaf etməkdə olan ölkələrin valyutaları ABŞ dollarına qarşı iri rəqəmlərlə ifadə olunan dəyər itirirdi. Amma dünənki toplantıdan, FES-in uçot dərəcəsini artırmamasından sonra dolların mövqeyi zəifləməyə başlayıb. Birjalarda sürətlə ucuzlaşma gedir. Bu, təbii ki, milli valyutaların möhkəmlənməsinə müəyyən qədər dəstək göstərdi. Amma düşünürəm ki, bu proses uzun çəkməyəcək. Bu günə qədər qalxmış, bahalaşmış dolların bahalaşma faizi qədər ucuzlaşması ehtimalı var. Bir neçə gündən sonra isə yenidən birjalarda sabitlik yaranacaq və dollar müəyyən qədər itirilmiş mövqeyini bərpa edəcək. Təbii ki, proses növbəti toplantıya



yenidən dolların möhkəmlənməsi ilə davam edəcək. Bu baxımdan götürəndə FES-in qərarının Azərbaycan üçün də müəyyən əhəmiyyəti var. Milli valyuta olan manatın məzənnəsi avronun birlikdə təmsil olunduğu səbətin nəticəsində formalaşır. Hazırda dolların avroya qarşı məzənnəsini itirməsi nəticəsində növbəti günlərdə biz müşahidə edəcəyik ki, Mərkəzi Bankın məzənnələrində dolların mövqeyi zəifləyəcək manata qarşı. Lakin uzunmüddətli proses deyil və hər hansı bir ajiotaj yaranmasına da səbəb yoxdur".

**Ekspert Natiq Cəfərli** isə qeyd edib ki, FES-in bu qərarı gözlənilən idi: "Dollar dünyada az da olsa ucuzlaşdı, bu, neftə də təsir etdi, qiymət 1 dollar qalxdı. FES-in açıqlaması onu göstərdi ki, bu il 4 yox, amma 2 dəfə faiz artacaq. Yəni dolların dünyada ucuzlaşması müvəqqətidir".

Qeyd edək ki, son günlər Azərbaycan bankları xeyli dollar alıblar. Məsələn, martın 11-də Dövlət Neft Fondu tərəfindən 200 milyon ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb, bu vəsaitdən 68,4 milyon dollar məbləğində vəsait 25 banka satılıb. Bəzi ekspertlər bankların dollar almasını FES-in toplantısına hazırlıq kimi qiymətləndirirlər. Yəni banklar dolların bahalaşmasına hazırlaşaraq bu addımı atıb. Ekspert Əkrəm Həsənov isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, bankların son vaxtlar kütləvi olaraq dollar alması FES-dən gözlənti ilə bağlı deyil: "Banklar onu gözləmirdilər. Çünki gözlənilirdi ki, uçot dərəcəsində artım olmayacaq, əksəriyyət bu fikirdə idi. Bankların daxildə də gözləntiləri var, məsələn, devalvasiya. Yəni banklar devalvasiyanın davam etməsini gözləyirlər. Buna görə dollar yığırlar. Milli valyutamıza etibar etmirlər. Bu proses bitməyib. Ona görə də dollar yığmaqda da davam edəcəklər".

**Xatırladaq ki, ötən ilin dekabrın 16-da FES uçot dərəcəsinin baza faiz dərəcəsini illik 0-0,25 faiz rekord aşağı səviyyə ilə 0,25 faiz artırıb. Baza faiz dərəcəsi üzrə orta göstərici 0,375 faiz təşkil edir.**

❑ **RÖYA**

# Böyük özəlləşdirmə Novruzdan sonraya qaldı

## "Hökumət hansı müəssisələrin özəlləşdirilməsi ilə bağlı qərarsızdır"

**Azərbaycan hökuməti strateji əhəmiyyətli müəssisələrin özəlləşdirilməsi ilə bağlı qərar verib. Hazırda məsləhətçi şirkətlər və ekspertlər cəlb edilməklə ölkədə dövlət əmlakının özəlləşdirilməsi üzrə yeni proqram hazırlanır. Bir müddət öncə bu haqda məlumat verən Azərbaycan prezidentinin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov bildirmişdi ki, özəlləşdirmədə məqsəd sadəcə bir obyekti özəlləşdirib, dövlət gəlirlərini artırmaq deyil:**

"Azərbaycanın kifayət qədər strateji valyuta ehtiyatları var. Özəlləşdirmə ilə bağlı prezident İlham Əliyev hökumət qarşısında bir neçə məqsəd qoyub. Birincisi, bəlli şərtlər və investisiya təklifləri olarsa, bir sıra dövlət müəssisələrinin müəyyən faizini özəlləşdirməkdir. Burada məqsəd həmin şirkətlərin həm idarə edilməsini, həm də fəaliyyətində şəffaflığı artırmaqla, şirkətlərin sağlamlaşdırılmasını həyata keçirməkdir. İkinci kateqoriya müəssisələr isə daha yüksək hissə ilə özəlləşdiriləcək. Burada məqsəd həmin sektorda rəqabət qabiliyyətliyini artırmaqdır".

Lakin bu prosesin xeyli müddət öncə başlamasına baxmayaraq, bir günə qədər heç bir dövlət əmlakı, heç bir müəssisə özəlləşdirilməyə çıxarılmayıb. Hökumət çətin bu məsələyə əməli olaraq nə zaman qayıdacağı məchuldur. Məlum oldu kimi, ölkə üzrə 9 günlük bayram tətili başlayır. Bu məsələnin Novruz bayramından sonra gündəmə gəlib-gəlməyəcəyi sual doğurur.

**İqtisadçı ekspert Vüqar Bayramov** ""Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əsas problem strateji əhəmiyyətli müəssisələrin özəlləşdirilməyə çıxarılması ilə bağlıdır: "Özəlləşdirmə prosesi ilə bağlı açıqlamalar yoxdur. Lakin belə görünür ki, yaxın vaxtlarda özəlləşdirmə prosesinə başlanıla bilər. Bu məsələdə əsas problem hansı müəssisələrin özəlləşdirilməyə çıxarılması ilə bağlıdır. Əgər biz özəlləşdirmə yolu ilə xarici investisiyanı cəlb etmək istəyiriksə, o zaman özəlləşməyə çıxarılan müəssisələr strateji müəssisələri olmalıdır ki, xarici investisiyanı cəlb etmək mümkün olsun. Əgər sıradan müəssisələr özəlləşdirilməyə çıxarılacaqsa, o zaman bu proses effektiv olmayacaq. Özəlləşdirmə prosesində nəzərdə tutulan hədəflərə nail olunması üçün özəlləşməyə çıxarılan müəssisələrin strateji əhəmiyyət daşıması olduqca vacibdir. Görünür bu məsələdə razılıq əldə etmək tam mümkün olmayıb".

**İqtisadçının vurğuladığı digər vacib məqam isə, bu prosesdən öncə, investisiya mühitinin yaxşılaşdırılmasıdır:** "Bu istiqamətdə tədbirlərin davam etdirilməsi də vacibdir. Çünki biz xarici investisiyanı genişləndirmək, cəlb etmək istəyiriksə, o zaman investisiya mühitinin yaxşılaşdırılmasına da ehtiyac var. Özəlləşdirmə prosesi islahatların önündə olmamalıdır. Bu prosesi iqtisadi mühitin formalaşdırılmasının davamı olaraq həyata keçirilməlidir. Ona görə də, özəlləşdirmə prosesinin yubadılması mümkündür".

**İqtisadçı ekspert Qadir İbrahimli isə "Yeni Müsavat"a bildirdi ki, özəlləşdirmə proqramının həyata keçirilməsi üçün bir neçə il vaxt tələb olunur:** "Elan olunan özəlləşdirmənin əsasları hazırlanmalıdır, yəni özəlləşdirməyə çıxarılacaq müəssisələr elan edilməlidir. Yalnız bundan sonra özəlləşdirmə prosesinə start verilir. Bu proses də ən azı bir neçə ay davam edəcək. Özəlləşdirilməyə çıxarılacaq müəssisələrin müəyyənləşdirilməsi, elan edilməsi prosesi bir müddət çəkə bilər.

Çox güman ki, iri dövlət şirkətlərinə daxil olan infrastruktur müəssisələr özəlləşdirilməyə çıxarıla bilər. Rabitə Nazirliyinin bəzi müəssisələri, neft şirkətinin hasilatla məşğul olmayan bəzi idarələri, nəqliyyat sahəsindəki bəzi müəssisələr və sair özəlləşdirilə bilər. Prinsipcə Azərbaycanda emal sektoruna və xidmət sektoruna aid bir çox müəssisələrin özəlləşdirilməsinin vaxtı çatıb artıq. Burada söhbət növbəti mərhələdə dövlət mülkiyyətində olan və təbii inhisarçı şirkətlərin özəlləşdirilməsindən söhbət gedir".

**Ekspertin sözlərinə görə, özəlləşdirmənin dövlət üçün bir çox faydaları var:** "Əgər müəssisə rentabelli deyilsə və dövlət də həmin müəssisələrə sərmayə qoymaq gücündə deyilsə, o zaman özəlləşdirməyə çıxarılır ki, yeni investor, yeni mülkiyyətçi həmin müəssisəyə yenidən sərmayə qoysun, dövlətin yükü azalsın. Burada həm dövlətin yükü azalır, həm də özəlləşdirmədən dövlətə müəyyən gəlirlər gəlir, həm də gələcəkdə müəssisə normal işləyəcəksə, dövlət yeni vergi mənbələri qazanır. Bu baxımdan özəlləşdirmənin dövlətə ziyanı yox, faydası var. Bir şərtlə ki, özəlləşdirmə şəffaf aparılsın və müəssisələrin profili dəyişmədən investor ona yatırımlar qoysun. Bu zaman özəlləşdirmə effektiv nəticə verə bilər".

❑ **Nərgiz LİFTİYEVA**

Yeni Müsavat
N 62 (6383) 18 mart 2016

**Xalq artisti Canəli Əkbərovun bu günlərdə 76 yaşı tamam oldu. Xanəndəni müsahibəyə razı salmaq o qədər də asan olmadı. Canəli müəllimin bu gün də dərs dediyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə yollandıq. Universitetin "Muğam sənəti" kafedrasının müdiri olan xanəndə ilə öz otağında söhbətləşdik.**

# "Prezidentin bağışladığı evi balalarıma vəsiyyət etmişəm"

## Canəli Əkbərov: "Əgər oxuya bilməsəydim, indi acından ölərdim"

***- Canəli müəllim, bu yaşda özünüzü necə hiss edirsiz?***

- Sözün düzü, heç yadıma düşmür ki, bu qədər yaşım var. Bilirsiz niyə? Çünki özümə baxan kişiyəm...

***- "Özümə baxıram" deyəndə idmanla məşğul olursuz və ya qidanıza diqqət edirsiz?***

- Atamın atası, yəni babam Kərbəlayi Ağa Məhəmməd kişi həm gözəl səs sahibi, həm də çox güclü pəhləvan olub. Atama ondan gözəl səs, bizə də güc keçib. Məndən kiçik qardaşım Məzahir də pəhləvan olub. O, həm də gözəl xanəndə idi.

**"...mənim başımdakı papağı atmazlar"**

***-Novruz bayramı ərəfəsindəyik. Keçmiş Novruz adətləri ilə indiki adətlər arasında nə kimi fərqlər var? Uşaqlığınızda, gəncliyinizdə hansı Novruz adətləri var idi, hansı ki, bu gün onları görə bilmirsiz?***

- 22 yaşımdan Bakıya köçmüşəm. Kənddə gördüklərimlə burda gördüklərim arasında fərqlər çoxdan çoxdur (Canəli Əkbərov Lənkəran rayonunun Tükəvilə kəndində anadan olub, bir müddət orda yaşayıb - X.G). Məsələn, rəhmətlik nənəm çox işgüzar, səxavətli, nikbin əhval-ruhiyyəli bir xanım idi. Anam vasvası qadın idi. Bir stəkanı 3 dəfə suya çəkib sonra onda çay süzürdü. Bax belə bir xanımın övladı olmuşam. Atam xanəndə idi, o toydan bu toya gedərdi, bəzən günlərlə evdə olmazdı. Atam gələndə anam onun qayğısına qalar, qulluq edərdi. İndi belə ərinə qulluq edən xanımlar var?

Rəhmətlik nənəm bayrama on gün qalmış evə təzə suvaq çəkərdi. Göyə çalan palçıq var idi, onu suda əridər, sonra suyundan evin çöl tərəfdən, üst qatına çəkərdilər ki, ev səliqəli görünsün. Evə qəşəng görüntü verirdi. Çox zəngin süfrə açılardı, çox zəngin. Balıqdan neçə növ yemək bişirərdilər. Qozu üyüdüb balığın, toyuq-cücənin içinə qoyar, ləvəngi bişirərdilər. Onu təndirə salanda heyva ağacının uzun çöpündən istifadə edərdilər. Nənəmdən soruşardım ki, nənə "niyə heyva ağacının çöpündən?". Deyərdi ki, "bala onun çöpündə xüsusi ətirşahlıq var. Təndirdə bişəndə çubuğun ətri toyuğa keçir. Bu cür burda edən və ya bilən var?

O qədər papaq atmışam ki... Uşaq olmuşam da. Görürdüm hamı atır mən də atardım. Bizim kəndimiz Masallının kəndləri ilə qonşudur. Keçərdik qonşu kəndlərə papaq atardıq. Bizi öz balaları kimi qarşılayar, başımıza tumar çəkər, bizi əlidolu yola salardılar.

***- Amma indi "papaq atma"nı tənqid edirlər. Deyirlər ki, "papağı yerə atmazlar", bu adətin yığışdırılmasını təklif edirlər.***

- Papağı yerə atmazlar deyəndə, baxır hansı papağı? Məsələn, mənim başımdakı papağı atmazlar. Bu, namus-qeyrət rəmzidir. Amma papaq var ki, adi bir papaqdır... Düz dörd gündür ki, bizim qapıya da papaq atırlar. Yoldaşımda hər şeyi hazır qoyub ki, papaq atanlara pay versin. Hələlik atırlar, nə vaxt yekunlaşacaq, bilinmir...

***- Yəni bu cür adət-ənənələri saxlamaq lazımdırmı?***

- Lazımdır. Nə bizə gəlib çatıbsa onu qorumağa dəyər. Onu bəyənmə, bunu bəyənmə, bəs sən nəyi bəyənirsən?

**"Yazını səndən aldı, olur cəllad... "**

***- Sizinlə müsahibəmizi razılaşdıranda sanki jurnalistlərdən gileyli kimi danışırdız.***

- Bilirsən niyə? Bura gələndə olurlar peyğəmbər balası. Amma ki, yazını səndən aldı, olur cəllad. Bunun əleyhinəyəm. Necə varamsa, məni necə görürsənsə, o cür qələmə al da...

***- Onların sualları, yoxsa yazdıqları sizi qane etmir?***

- Sonradan yazını dəyişir, özlərindən əlavələr edirlər.

**"Təbabət zirvəsindən musiqi zirvəsinədək qalxmışam"**

***- Muğam sənətindən başqa hansısa peşəni bacarırsınız?***

- Həkimliyi.

***- Həkimliyi bitirmisiz?***

- Bəli.

***- Bu barədə bir qədər geniş danışardız, zəhmət olmasa.***

- Geniş deyəndə ki, zəhmət çəkmişəm, elm öyrənmişəm. Mən təbabət zirvəsindən musiqi zirvəsinədək qalxmışam.

***- Həkimliklə muğamı eyni vaxtda öyrənmisiz?***

- Muğamı bilirdim. Atam xanəndə idi, onunla toya gedərdim.

***- Maraqlıdır, bəs niyə həkimliyi davam etmədiz?***

- Fikirləşdim ki, həkimliklə o zirvəni tuta bilmərəm, amma musiqi ilə tutaram.

***- Davamçılarınız varmı?***

- Onların ikisi elə oturub burda (tələbələrini göstərir). Onlara can qurban. Sərxan mingəçevirlidir, o biri də ağdamlı balası.

***- Tanınmışlardan kimlər sizin tələbəniz olub?***

- Tələbələrim indi xalq artisti, əməkdar artist, prezident mükafatçılarıdır, hazırda mənimlə birgə işləyirlər. Onlar Gülyanaq və Gülyaz bacıları, Zabit Nəbizadə, Babək Niftəliyev, Ehtiram Hüseynov və başqalarıdır. Ümid edirəm ki, bu balalar da (tələbələrini göstərir) inşallah o zirvəni tutar.

**"...nəslin qoçusu mənəm"**

***- Bəs ailədə davamçınız varmı?***

- Mənim iki qardaşım hazırda bu sənətlə ailələrini dolandırırlar. Amma nəsildə qoçu bir dənə olar, o da mənəm. 55 ildir ki, bu sənətdəyəm və sənətin zirvəsindəyəm. Ümid etmirəm ki, kimsə gəlib bu zirvəni fəth edə bilər. Çünki indi psixologiya, zaman, tələb dəyişilib, özündənmüştəbehlik artıb. Baxın, görün hansı nəhənglərlə işləmişəm? *(Divardakı korifey sənətkarların portretlərini göstərir)*. Onlar bu gün yoxdurlar, mən onların ruhlarından ilham alıram. Mən gəlib bu zirvəni fəth etdim. Sevinirəm ki, bu mənə nəsib olub. Onları qazanmaq üçün də qafan düz işləməlidir. Səndə göz, dil halallığı olmalıdır. 13 nəvə, 13 nəticə babası, 5 övlad atasıyam. Dövlətdən mənə ev nəsib olub. Bu elə-elə deyil. Oxumağa qalanda hamı oxuyur. Məntiqsiz, məzmunsuz oxumaq kimə gərəkdir?

**"Hər kanal özü üçün bazar açıb. Ayıbdır!"**

***- Bayaq dediniz zaman dəyişib, hərc-mərclik artıb...***

- Sənətdə də, cəmiyyətdə də. Hərc-mərclik məni qane etmir.

***- Məsələn nə?***

- Telekanallara baxıram, görürsən ki, hər kanal özü üçün bazar açıb. Ayıbdır! Hələlik biz ölməmişik, biz varıq. Mən keçmiş nəsillə indiki nəsil arasında mənəvi bir körpüyəm. Mənim yadıma gəlir rəhmətlik Xan əmi oturmasaydı, deməsəydi ki, "otursana", biz oturmazdık. İndikilər gəlib adamın gözünü deşirlər, bəzən heç salam da olmur.

**"İlhamə foyedə durub, ordan bizə baxırdı"**

***- Bildiyim qədər Tükəzban xanımla da bir yerdə çalışmısız, onun ailəsini, İlhamə xanımı daha yaxından tanıyıbsız.***

- İlhamə mənim gözümün qabağında sənətə gəlib. Mən anası ilə filarmoniyada konsert verəndə o gəlib foyedə durub, oradan bizə baxırdı. Atası rəhmətlik Həbib ilə bir yerdə işləmişik.

***- Bu məqama toxunmağımın səbəbi var. Həm ömrünün sonlarına yaxın, həm də ölümündən sonra İlhamə Quliyevaya qarşı ictimaiyyətdə müəyyən təpkilər oldu.***

- Gərək olmayaydı... Ölüb haqq dünyasındadır. Məhəmməd peyğəmbərə qalmayan dünya sənə, mənə qalan deyil. İnsan gərək özünü elə idarə edə ki, xalqın yaddaşında yaxşı qalsın, ona qarşı hücumlar olmaya. Əsas xalqdır. Son söz xalqındır... Mən indi 77 yaşında olan kişiyəm. Mənim sözüm həm ailəm, həm məni tanıyanlar üçün müqəddəsdir. Bəzi gözü götürməyənlər də olur ha, bunu da deyim, orda-burda haqqımda sözlər deyirlər.

***- Hətta qalmaqallar da çıxır bəzən adınıza.***

- Hə ey, hə... Mən Allahın ətəyindən yapışmışam. Heç gör o atılan daşdan mənə dəyən olub? Dəyməz inşallah. Allah bilir o daşı kimə tuşlamaq lazımdır.

***- Tez-tez rastlaşırıq, hansısa sənətkar, tanınmış dünyasını dəyişdikdən sonra ortalığa miras qalmaqalı çıxır. Bu baxımdan siz vəsiyyətnamə yazmısınızmı?***

- Bəli. Mən indidən öz işimi qurub-quraşdırmışam. Prezidentin bağışladığı evdə yoldaşımla qeydiyyatdayıq. Amma düşünürəm ki, sabah başımı qoydum yerə, arvad da qoca, savadsız qadındır, yaxşı, bəs sonra necə olacaq? Buna görə işimi bərk başdan möhkəm tutdum. Evi ədəb-ərkanlı surətdə öz balalarıma vəsiyyət etmişəm, hətta bu gün bankda on manat pulum varsa belə onu balalarıma rəsmi qaydada bölmüşəm.

**"O hay-küydə yaşamaq qeyri-mümkündür"**

***- Toylara gedirsiz?***

- Yox.

***- Nə zamandan getmirsiz?***

- İndiki toylarda mən sənət görmürəm, hay-küy eşidirəm. O hay-küydə yaşamaq qeyri-mümkündür. Oturub ədəb-ərkanla danışmaq, o da nəsib olmur. O nə toydur? Biz toylar görməmişik? O vaxt toyxanalar var idi, indi şadlıqxanalar var.

**"AzTV-yə gedəndən sonra başladı məndən qisasını almağa"**

Qoy bir şeyi də deyim. Bu, mənim ağrılı yerimdir. 2002-ci ildə, o vaxt Respublika Sarayı adlanırdı, orda mənim solo konsertim olmuşdu. O vaxt "Space" TV-də Nadir Axundov adlı bir şəxs işləyirdi. Təsadüfən konsertdən söz düşəndə dedi ki, biz çəkərik. Dedim Nadir müəllim, AzTV-də mənə söz veriblər ki, onlar çəkəcəklər, o da bir söz demədi. Konsertə gələrkən yolda Nadir mənə zəng etdi. Dedi ki, əgər onlar çəkməsələr, biz çəkərik. Dedim ki, Nadir mən onlara xahiş etməmişəm, sən isə özün mənə söz vermisən, çəkirsən gəl çək. Xülasə, konsert oldu, "Space"TV televiziyası çəkdi. Bir neçə gündən sonra məni çağırdılar ki, gəl, montaj edirik. Montajı etdik, planlaşdırdıq ki, konsertin ümumi forması necə olacaq. Səhəri gün konsert yayımlananda gördüm montajdan bir əsər-əlamət yoxdur. Montajı təzədən montaj ediblər, öz istədiyi kimi. Zəng etdim televiziyaya, o vaxtı direktor Etibar müəllim idi və o, həmin adamı tənbeh etdi. Axır, Nadirlə mənim inqilabım düşdü. Sonra Nadiri də, Etibarı da kanaldan çıxartdılar. Etibarın yerinə gəldi Vaqif Mustafayev, Nadir də getdi AzTV-yə. O da AzTV-yə gedəndən sonra başladı məndən qisasını almağa, məni Muğam Festivalından pozmağa. Fikir verin, kim kimə qənim kəsilir? Məni Muğam Festivalından uzaqlaşdırmaqla ora kimləri saldı? Səsi, sözü düz olmayan, çənəsi, dodağı əyri, Füzulinin söz qəlibini pozan, muğam üçün səsi olmayan, "priboy" oxuyanları. "Priboy" oxuyanlar münsiflər heyətində bal yazdılar, amma xalq artisti, professor Canəli Əkbərov oturdu iş otağında. O muğamçıları dəstəkləyən adamlar da maraqlanmadılar ki, ay camaat, axı Canəli Əkbərov var, nə əcəb festivalda o yoxdur, səbəb nədir? Ara-sıra "Space" TV mənim ad günlərimi keçirərdi. Keçən il televiziyadan zəng etdilər ki, bəs Canəli müəllim, istəyirik ki, sənin ad günün keçirək. Dedim keçirin, amma orda mənim konsertimin yazısı var, onu verin, sonra ad günümü keçirin. And-aman etdilər ki, verəcəklər. Ad günümü keçirəndə də bir dəfə olsun canlı görüntümü görmədim. Amma haqqımda İctimai kanal, daha sonra AzTV film çəkdi, Mədəniyyət kanalı da həmin filmi verdi, sağ olsunlar.

**"Əgər bir damcı səsim olmayıb, oxuya bilməsəydim, indi acından ölənin bir olardım"**

***- Biznesiniz varmı?***

- Yox. Əgər bir damcı səsim olmayıb, oxuya bilməsəydim, indi acından ölənin bir olardım. Mən divara bir mıx çala bilmirəm, qorxaram ki, barmağımı əzərəm.

***- Sonuncu dəfə nə zaman aşiq olmusuz?***

- (mahnı zümzümə edir) Aşiq oldum, aşiq oldum...(sonra gülür). Xanım, həyatdır, azad dünyadır. Aşiq olmaq deməzdim, göz gülüstan sarayında dəyərli, yaxşı açmış, ləçəkləri gözəl gül olanda birinci ona baxır.

**"Neynirəm kifir baxışlı, eybəcər bir xanımı?"**

***- Yəni gözəllik aşiqisiz.***

- Hə, mən gözəllik aşiqiyəm. Mən neynirəm kifir baxışlı, eybəcər bir xanımı? Xanımın yerişində, yemək yeməyində, səsinin içində mədəniyyət olmalıdır. Onda həyat sənə daha da gözəl görükür. Bunu pis mənada demirəm. Şükür doqquzuncu sinfi bitirən xanım mənim həyat yoldaşım olub. Ona deyirəm ki, baxmayaraq ki, sən doqquzuncu sinfi bitirmisən, sonradan mənim həyat akademiyamda oxumusan.

**"Çıxıb hərəsi ombasını oynadır, çiyinlərini fırladır. Bu xalqı nə sayırsız?!"**

***- 77 yaşınızda nəyi etiraf etmək və ya ürəyinizdə qalan hansı sözü demək istəyirsiz?***

- Deməyə sözüm çoxdur. Əgər səlahiyyət yiyəsi olsaydım, Azərbaycan telekanallarındakı hərc-mərcliyə, özbaşınalıqlara son qoyardım. Bizi nə sayırsız? Çıxıb hərəsi ombasını oynadır, çiyinlərini fırladır. Bu xalqı nə sayırsız?! Bəzi-bəzi xoşagəlməz işlər görən müğənnilər, xanımlar indi ailə tərbiyəsindən danışırlar.

**"Parlamentdə mədəniyyət işlərinə baxan insanlar bəs hara baxırlar?"**

***- Əksəriyyəti də xalq artisti adını alıb.***

- Özümü qoyaq kənara, ustadlarımız gözümün qabağına gətirirəm ki, pərvərdigara, Xan Şuşinski də xalq artisti, filankəs də xalq artisti? Biz adi əməkdar artist adını almaq üçün min bir əziyyət çəkirdik. Nə qədər xarici ölkələrdə konsertlər vermişik, maşınlarımız xarab olub piyada yol getmişik, kolxozlarda can çürütmüşük, rütubətli mehmanxanalarda qalırdıq, sən deyən xərcləməyə pulumuz da olmurdu. İndi "pırt" edib çıxanlar əməkdar artist olur. Ayıbdır, sadəcə ayıbdır! Mən əleyhinəyəm belə şeylərin. Parlamentdə mədəniyyət işlərinə baxan insanlar var. Bəs onlar hara baxırlar? Niyə bunlar layihə hazırlamırlar? Belə olmaz. Belə getsə, milli musiqi mədəniyyətimizin nüfuzu zəifləyər".

❑ **Xalidə GƏRAY**



**"İndi "pırt" edib çıxanlar əməkdar artist olur. Ayıbdır, sadəcə ayıbdır!"**

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016




# İnsanda Allah qorxusu olmalıdırmı?

**Cümə söhbətləri**

**Həmd olsun Allaha ki, bizlərə düşünə bilmək, dərk etmək, fikirləşmək, Onun yaradılışda qoyduğu inayətlərini görmək tofiqatını vermişdir. Bunları düşünə bilmək insanın ayılması üçün fövqəl dərəcədə mühümdür. Düşünməli mövzulardan biri də bizim həyatımız, mövcudiyyətimiz, durumumuzdur.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Nə üçün Allahdan qorxmalıyıq?

Bu həyat - dəniz, okean kimidir. Bu okeanda, dənizdə cürbəcür dalğalar olur. Bizim burada sağ-salamat mövcudiyyətimiz və salamat şəkildə buradan keçməyimiz üçün gərək müvafiq miniklərimiz olsun. Ötən bəhsimizdə bu mövzuya toxunduq ki, təqva - bu dünya burulğanlarından keçə bilmək üçün ən ciddi və yeganə minikdir. Təqva - əslində insanın içində olan Allah xofunun, İlahi qorxunun nəticəsində meydana gələn günahdan çəkinmə və Allaha bəndəliyə tərəf yönəlmə halətidir. Təqvanın mahiyyəti bundan ibarətdir. Bir insanın, iman əhlinin, Allah bəndəsinin gərək bünövrəli, köklü imanından irəli gələn İlahi xofu olsun. Əgər bu İlahi xof və qorxu olmasa, onun davranışlarında təqvalı davranış mümkün olmayacaq. Deməli, təqvanı zəruri edən əsas məsələlərdən biri - İlahi xof və İlahi qorxudur. O da, iman olmasa, mövcud ola bilməz. Deməli, insanın imanı olmalıdır, əmin olmalıdır ki, onu bir Yaradan var, burada elə-belə mövcud deyil, bir gün sorğu-sualı olacaq və qorxusu olmalıdır ki, buranı boş, mənasız yaşayar, nəticədə əbədi müsibətlərlə qarşı-qarşıya gələr. İmanı olmalıdır ki, burada yaxşı yaşasa, Allahın hədiyyələrini, mükafatını görəcək. Əgər pis yaşasa, nəticəsi pis olacaq.

İnsanın imanı səbəb olur ki, onda bir rasional qorxu hissi əmələ gəlsin. Necə ki, elmi, ağlı olan insan təhlükəli bir şeydən qorxur, eləcə də imanlı insanın günah etmək qorxusu var və bu qorxu səbəb olar ki, insan pis işə tərəf getmir. Pis işin aqibətindən xəbərdardır, ona görə pis işdən uzaq durur. Pis iş etməkdən qorxur. Allah bəyənənə tərəf gedir, bilir ki, bunun yaxşı yekunu var.

Bəli, əgər insan yaxşı durumda, yaxşı vəziyyətdədirsə, İlahi xofu var ki, birdən büdrəyər. Qorxur ki, birdən səhv edər, xəta edər, həmin bu yaxşı vəziyyəti əldən gedər. Hər hansı vəziyyətdə, durumda arxayınçılığı yoxdur. Əla vəziyyətdədirsə, qorxusu var ki, birdən əldən verər. Pis vəziyyətdədirsə, qorxusu var ki, bunun aqibəti pis olar. Bu ruhiyyə onu çəkindirir. Təqva - əslində budur. Bu ruhiyyə olmasa, heç nəyin mənası yoxdur. Bu ruhiyyə ilə qəflət birlikdə ola bilməz. Qəflətin açılımlarından, izahlarından, təriflərindən biri də elə budur. Qəflət - o hallardandır ki, orada insan fəal imana malik deyil, nəticədə İlahi xofa malik deyil. Deyəndə ki, bir insan qəflətdədir, bu, o deməkdir ki, onun durumunu İlahi xof tənzimləmir. Qəflətin elə bir mənası da budur. Çünki, qəflətdə olan insanın İlahi xofu olmur. Nə gəldi edir, fərqinə varmır. İmanı da var, amma aktiv deyil. Əgər aktiv vəziyyətdə imanı olsa, qorxusu olar. Deməli, qəflətlə diqqətli halın ən ciddi fərqi bundan ibarətdir ki, qəflətdə olan insanın imanı aktiv olmadığına görə, İlahi xofa da malik olmur. Qəflətdə olan insan bu vəziyyətlərdən uzaqdır. Bütün bunlar insanın qəlbində baş verir. Ona görə də gərək qəlbimizlə məşğul olaq.

## İlahi xof fiziki və mənəvi xəstəlikləri müalicə edər

İlahi xofun insanın qəlbində yaratdığı təsirlərə diqqət edək. Bu təsirlərin arasında elələri vardır ki, insanın aqibətinə bilavasitə təsir edir. Bu münaibətlə Həzrət Əlidən (ə) nəql edilən hədisə diqqət edək: "Həqiqətən Allahdan qorxu - sizin qəlblərinizin dərdinin dərmanıdır. Qəlblərinizin gözünü açan, bədənlərinizin xəstəliklərinə şəfa verən, sinələrinizin puçluğunu aradan götürən, canlarınızdakı çirkinlikləri təmizləyən və gözlərinizdən korluğu siləndir". Qəlblərin bütün mərəzlərinin, bütün dərdlərinin, bütün ağrılarının, qəlbin mənəvi mərəziyyatının hamısının dərmanı, müalicəsi - İlahi xofda, Allahdan qorxmaqdadır. Bu olmasa, qəlb müalicə olunmur. Bu olmasa, qəlbdə heç bir irəliləyiş baş vermir. Allahdan qorxu qəlbimizin gözünü açır. Allahdan qorxan qəlb görən olur, aktiv olur, qəlbdəki iman fəal olur, bəsirətə malik olur, günahı görə bilir, cəhənnəmi görə bilir, pis aqibəti görə bilir, məhvə aparan yolu, nicata aparan yolu görə bilir. Öz vəziyyətini, yaşayışını aydın şəkildə görə bilir.

İnancımızın incə nöqtələrindən biri budur ki, təqvalı həyat tərzi həm də insanın sağlamlığına müsbət təsir göstərir. Bir insan təqvalı həyat tərzi sürəndə, bu, həm də onun fiziki xəstəliklərinin şəfa tapmasına kömək edir. Həzrət Əli (ə) mübarək buyuruşunda aydın şəkildə bildirir ki, İlahi qorxu xəstəliklərə şəfa verir.

## İlahi xof sinələrin puçluğunu aradan qaldırar

İnsanın içərisində bəzən böyük boşluq olur. Bəzən mənasız-mənasız hallara düşür. İnsanın qəlbini qəsavət basanda, ruhiyyəsi puç olanda, qəflət halına düşmüş olur. Bunu da İlahi xof aradan aparır. Əgər insan özünü Allah hüzurunda hiss etməsə, qəlbi puçlaşar. Amma Allah qorxusu, İlahi xof sinələrin puçluğunu götürər. İçimizdə olan çirkinləri, eybəcərlikləri də İlahi xof aradan aparar. Daxilimizdə bir paklaşma, təmizlənmə baş verər, nuraniyyət gələr. Gözlər görər, qulaqlar eşidər, dil boş-boşuna mövcud olmaz. Deməli, İlahi xof olsa, insan nə danışdığına fikir verər. Allahdan qorxusu olduğu üçün, ağır aqibətin perspektivini anladığı üçün qeybət etməz. O yerdə ki, danışmalıdır - orada danışar. Bilir ki, danışmasa, cavab verməli olacaq. Qorxar ki, qulaqları ğina eşitsin. Qulaqlarının ğina qəbul etməsi ilə qəlbinə sirayət etməsinə görə qorxusu olar. Gözlərinin nəyə gəldi baxmasından İlahi xofu olar. Əgər Allah eləməsin, büdrəsə, İlahi xofu onu tez qaldırar. Bu anlamda İlahi xof - çox önəmli məsələdir. Bütün bunlar iman olan yerdə meydana gələr.

## "Biz Allahdan qorxmamalıyıq, Onu yalnız sevməliyik" ifadəsi niyə yanlışdır?

İllərdir elə edirlər ki, dilimizdə qorxu sözü işlənməsin. "Biz Allahdan qorxmuruq, Onu sevirik" fikri çox zaman təlqin edilir. Dinimizin terminolojisində, Qurani-Kərim terminolojisində İlahi xof kəlməsi gəlir. İnsanların qorxuları müxtəlif cürdür. İnstinktlərdən irəli gələn qorxular var, heyvani qorxular var və s. Bu qorxu - o qorxulardan deyil. Bu, bir nurani, müqəddəs, işıqlı qorxudur, xeyirli aqibətə aparan qorxudur. Bu, heyvani qorxulardan tamamilə fərqlidir. Bu, insani səciyyəli bir qorxudur, yüksək qorxudur. Odur ki, bu kontekstdə qorxu sözünün istifadəsi tam olaraq yerindədir.

Biz diqqətli olmalıyıq ki, əgər elə bir vəziyyətimiz yoxdursa, deməli ağır, faciəli vəziyyətdəyik. Əgər içimizdə belə bir müqəddəs, belə bir nurani hal yoxdursa, qorxumuz yoxdursa - deməli, biz hələ yüksək insanlıq müstəvisinə daxil olmamışıq. Deməli, biz o qədər xəstələnmişik ki, bundan məhrum olmuşuq. Başımız da çox qarışıb. Hələ bundan sonra daha da çox qarışacaq. Kommunikasiyaların inkişafı, sürətin inkişafı, texnoloji inkişaf daha çox buna xidmət edir. Bu inkişaflar hamısı çox yaxşıdır, amma nəticədə nəyə gətirib çıxarır - mühüm olanı budur. Əgər Allahı xatırlamağa gətirib çıxaran vasitə olacaqlarsa, əladır. Əgər qəflət üçün vasitəyə çevriləcəklərsə, aqibətimiz zay olacaq. Əslində hər bir nemət belədir. Hesablamalar göstərir ki, hər neçə dəqiqədən bir, insanların çoxu telefonuna baxır. Amma hər neçə dəqiqədən bir, bizlər qəlbimizin halını yoxlamırıq. Hər neçə dəqiqədən bir, bizlər daxilimizə, vəziyyətimizə nəzər salmırıq.

Əgər vəziyyətimizi bilmək istəyiriksə, gərək daxilimizə nəzər salaq. Baxaq ki, daxilimizdə İlahi xof var, yoxsa yoxdur? Biz pis işə tərəf yönələndə daxilimizdə bir İlahi xof varmı ki, bizi bundan saxlasın? Əgər bu yoxdursa, deməli durum faciəlidir. Sual edək gərək ki, Allaha bəndəliyə aparan İlahi xof, bizim durumumuza hakim ola bilirmi? Bizim yaxşı vəziyyətdən çıxmağımıza mane olan, büdrəməmizə imkan verməyən İlahi xof varmı? Əgər varsa, xoş olsun halımıza.

## Nə edək ki, qəlbimizdə İlahi xof meydana gəlsin?

Nə edək ki, qəlbimizdə belə bir durum meydana gəlsin? Həzrət Əmirəlmöminin (ə) buyurur: "Ürəyini moizə ilə dirilt və onu hikmətlə nurlandır". Yolu ancaq bundan keçir. İnsan gün ərzində mənəvi mövzular üzərində çox düşünməlidir. Bunları qəbul etməli, eşitməli, üzərində təfəkkür və tədəbbür etməlidir. Necə ki, gün ərzində çoxlu qəflətin və qəflətə aparan məsələlərin qıcıqlarını alır, gərək salamatlığın, qəlb sağlamlığının da qidalarını alsın. Gərək insan moizə eşitsin, məlumat alsın, təfəkkür etsin, düşünsün.

## Nemətlərə mərifət, Allaha itaətin zəruri şərtidir

Qəlbdə İlahi xofun meydana gəlməsinin əsas səbəblərindən biri də Allaha mərifətin olmasıdır. Əgər insanın Allaha mərifəti, tanıması olsa, onda Allahdan qorxusu meydana gələr. İnsanın mərifətinin olmasının tətbiq sferasından biri də nemətlərdir. İnsan, mövcud olduğu həyatı ərzində malik olduğu nemətləri dərk etməlidir. Onları başa düşməsi, haqqını dərk etməsi zəruridir. Həzrət Əli (ə) buyurur: "Əgər Allah Təala Ona itaətsizlik olunduğuna görə əzabla qorxutmasaydı belə, yenə bəxş etdiyi nemətlərə görə Ona itaət etmək vacib olardı". Göründüyü kimi, insanın nemətlərə mərifətinin olması hətta İlahi xof olmadan belə, zəruridir. Hətta insan günahlara, itaətsizliyinə görə əzabla qorxudulmasaydı belə, ona verilən nemətlərə görə vacibdir ki, Allaha itaət etsin. Belə olması üçün insanın mərifəti olmalıdır. Bizlərə verilən saysız-hesabsız nemətlərin qədrini bilmək istəsək, gərək onların şükrünü edək. Ən böyük şükür də, nemət verənin nemətlə necə davranmamızı istədiyi kimi, onunla davranmaqdır.

Allaha itaət də əslində budur. Allaha itaət budur ki, insan Allah verdiyi nemətlərlə Onun istədiyi kimi davransın. Həyat neməti verib - həyatla Allah istədiyi kimi davranaq. Ailə neməti verib - onunla Allah istədiyi kimi davranaq. Əgər biz Allah istədiyi kimi davransaq, şükrünü yerinə yetirmiş oluruq və itaət də əslində budur. Nemətlə davranmağın ən qabiliyyətli yolu, yalnız Allahdan qorxuya görə deyil, bu nemətlərin bəxşinə görə Allaha şükür etmək, itaət etməkdir. Əgər biz nemətlərlə Allah istəyən kimi davransaq, itaət etmiş oluruq.

Əslində əzabla qorxutmaq - bir ayıldıcı məsələlərdir. Bunlar insanı qəflət halından oyatmaq üçündür. Amma, mərifətli insana, imanı aktiv halda olan insana bu artıq vacib deyil. O, artıq özü sözügedən kateqoriyaları dərk edir.

## Nemət nə zaman əlimizdən alına bilər?

İmam Sadiq (ə) buyurur: "Allah Təala bəndəyə verdiyi hər bir neməti, yalnız həmin neməti ondan məhrum etməyə layiq olan günaha görə geri almışdır". Əgər Allah Təala bizlərə bir neməti bəxş edibsə, o nemət o zaman insanın əlindən çıxar ki, nemətdən məhrum olmasına səbəb olan bir günahımız olsun. Deməli, günahlar nəinki aqibətlərimizi zay edir, həm də nemətlərdən məhrum edir. Bunun üçün də biz bir daha İlahi xofun nə qədər zəruri olduğunu anlayırıq. Əgər İlahi xofumuz olmasa ki, nemətlər əlimizdən çıxa bilər, daha rahat şəkildə günahlar etmiş olarıq. Başəriyyət nə qədər çox itaətsizliklər edib, o qədər çox nemətlərdən məhrum olub. Nə qədər çox günahlara meyillənib, ona verilən nemətlərdən o qədər məhrum olub.

Müsəlman insanlarının əsas müsibətləri buradadır. Nə zaman ki, İlahi xofla mövcud olsa, o zaman fərdi, ailəvi, ictimai, iqtisadi - həyatının bütün müstəviləri nuraniyyət üzərində olar. Əgər İlahi xof deyil, qəflət vəziyyətində olsa, nəticədə bu gün dünyada müşahidə etdiyimiz vəziyyət meydana gələr.

Allahım, bizlərə İlahi xofla yoğrulmuş bir həyat yaşamağı nəsib et!

Allahım, bizləri nemətlərdən məhrum edən günah və xətalardan uzaq et!

Allahım, aqibətlərimizi xeyirli et! Amin!

YENİ MÜSAVAT
N 62 (6383) 18 mart 2016

# Akif Çovdarovun məşhur obyektini dağıtdılar

## Jurnalist Aqil Xəlilin də buna görə ölümlə üzləşdiyi 4 mərtəbəli binanı Bakı Şəhər İcra Hakimiyyəti sökür

**Ləğv olunmuş MTN-in sabiq idarə rəisi, həbsdə olan general Akif Çovdarovun Bakıdakı məşhur obyekti buldozerlə dağıdılıb. İş prosesinin gedişində yaxınlıqdan keçən yolu da bağlayıblar. Akif Çovdarov həmin obyektin tikintisinə 2011-ci ildə başlayıb. İnşaatçılar obyektin tikintisini bu il - 2016-cı ilin yayında yekunlaşdırmalı idilər. İşin bu tərəfi də var ki, Zərifə Əliyeva adına göz klinikasının arxasındakı "Zeytun bağı"nda yerləşən 4 mərtəbəli obyektin tikintisi sona çatmaq üzrə olduğu bir vaxtda qanunsuz tikili elan olunub və sökülür. Sökənlər Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndələridir. Ağır texnika 5 ildir tikilən obyektin beton-dəmir konstruksiyalarını dağıtmağa çətinlik çəkib. Obyekti çox keyfiyyətli materiallardan tikiblər.**






Ərazidəki lövhədən məlum olur ki, Akif Çovdarov orada idman-sağlamlıq kompleksi inşa etdirirmiş. Ötən 5 il ərzində Akif Çovdarovun qorxusundan obyektə rəsmilərdən kimsə yaxınlaşmağa cürət etməyib. Söküntü-dağıntı ilə alaqədar əraziyə gələn məmurlar mətbuat nümayəndələrindən Akif Çovdarov vəzifədə olanda ora gəlib ağacların kəsilməsini dayandırmaqdan çəkindiklərini gizlətməyiblər. Məmurların çəkinmək üçün real əsasları olub. Axı Akif Çovdarovun jurnalistlərə qarşı özbaşınalıqlarından məmurlar da xəbərdar olublar. Düşünüblər ki, yaxınlaşıb ağacların kəsilməsi ilə maraqlansalar, özlərinin "nəfəsini kəsərlər"...

Bu həmin məşhur ərazidir ki, Akif Çovdarov 2008-ci ildə orada jurnalisti boğub öldürmək istəmişdi. Aqil Xəlil onun əlindən sivişib çıxmasaydı, bu gün jurnalistin o dünyada olması ehtimalı da böyük idi. Bu gün biz Aqil Xəlilin xəbərini Fransadan almazdıq...

Məsələ belə olmuşdu ki, jurnalist Aqil Xəlil ərazidə zeytun ağaclarının kəsilməsi haqda xəbər aldıqdan sonra oradan reportaj hazırlamağa getmişdi. Jurnalist peşə borcunu yerinə yetirərkən özünü ərazinin ağası hesab edən bir zat jurnalistin kimliyi ilə maraqlanmış, əlindən fotoaparatını almağa cəhd etmişdi. Aqil Xəlilin barmağını burub sındıran, fotoaparatın ipi ilə onu boğmağa cəhd edən şəxsin kimliyi çox keçmədən bəlli oldu. Mətbuatda jurnalisti öldürmək istəyən şəxsin fotoları yayılandan sonra aydın oldu ki, bu Milli Təhlükəsizlik Nazirliyinin idarə rəisi Akif Çovdarovdur. Mətbuat nümayəndələri bu zatın adını 2005-ci ildə "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlindən sonra eşitmişdi. Onun qətlin təşkilatçılığında iştirakı haqda məlumatlar vardı. Akif Çovdarov hazırda Bakı İstintaq Təcridxanasındadır. Çeşidli cinayətləri törətməkdə ittiham olunur. Sahibkarlara qan uddurmaqda, onlardan xərac almaqda ad çıxarıb. Bu gün sökülən həmin 4 mərtəbəli obyektdə A.Çovdarovun şəxsi vəsaiti nə qədər olub, bunu özü bilir. Amma şübhə də yoxdur ki, həmin obyekt var olmasında Akif Çovdarovun idarəsindən keçən yüzlərlə sahibkarlın cibinin pulu hesabına ucaldılırdı. Bu gün tar-mar olunan həmin obyektin altında qalan təkcə ərazidə kəsilən yüzlərlə zeytun ağacı deyil. Jurnalist Aqil Xəlilin tökülən qanı üzərində həmin obyektin özülü qoyulmuşdu...

**Bu gün 4 mərtəbəli obyektin dağıdılmasında ilahi ədalət axtaranlar da var, "sökmək lazım deyildi" deyənlər də. Ancaq indi kimin haqlı olmasının elə də ciddi əhəmiyyəti yoxdur...**

❑ E.MƏMMƏDƏLİYEV

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# "3 qat agent" məsələsini DTX araşdırır?

**Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyevə maliyyə naziri Samir Şərifovun adı hallanan "agent qalmaqalı"nın araşdırılması tapşırılıb. Bu haqda "Azadlıq" qəzeti məlumat yazıb. Qəzet yazır ki, Mədət Quliyev bu məsələdə iqtidardaxili qrupların rolunun olub-olmamasını müəyyən etməlidir.**

Qeyd edək ki, sovet kəşfiyyatçısı olmuş, hazırda isə Amerikanın maliyyə analitiki Yuri Şvets Ukraynanın "Qordon" agentliyinə müsahibəsində Azərbaycan hökumətini silkələyəcək ittihamlar səsləndirib. O, özünün yeni kitabı haqda danışarkən, Azərbaycanın yüksək siyasi elitasında təmsil olunan və hazırda Kremlə işləyən "üçqat agentdən" də bəhs edib. Həmin məmur Azərbaycanın maliyyə naziri Samir Şərifovdur. Şvetsin iddiasına görə, agentura məlumatlarında bildirilir ki, Samir Şərifov Rusiya, Türkiyə və Amerika xüsusi xidmət orqanlarına işləyib, indi yenidən Kreml tərəfindən ələ alınıb. Maliyyə Nazirliyinin məsələyə ironik münasibətini nəzərə almasaq, hələ bu qalmaqalla bağlı Samir Şərifovdan tərəfdən ciddi reaksiya verilməyib. Bu material yayılandan sonra ekspertlər bildirmişdi ki, Şvetsin iddiaları əsassızdırsa, maliyyə naziri onu məhkəməyə verməklə bunu sübut etməyə cəhd edə bilər. Lakin bu da baş verməyib. Maliyyə Nazirliyinin mətbuat katibi Mais Piriyev bildirib ki, mətbuat xidmətində bu barədə məlumat yoxdur.

❑ E.HÜSEYNOV

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Telefon: (050) 264 49 99**

# "Nar"dan Novruz bayramı üçün "Rominq hədiyyəsi"

## Rominqdə olan abunəçilər bayram günlərində xüsusi endirimdən yararlanacaqlar

Gəlin birlikdə böyüyək

**"Nar" Novruz bayramı günlərində ölkə xaricində olan abunəçilərinə xüsusi rominq endirimi təqdim etdi. Belə ki, bayram günlərində xaricdə olan "Nar" istifadəçiləri rominq zonasından asılı olmayaraq, bütün məhsul və xidmətlər üzrə 20%-lik Novruz endirimindən yararlana biləcəklər.**

**18 mart 2016-cı il tarixdə start götürəcək kampaniya ayın son günü - 31 mart 2016-cı il tarixinədək qüvvədə olacaq. Kampaniyadan sonradan ödənişli (postpaid) bütün abunəçilər faydalana biləcəklər.**

**"Nar" operatorunun "Bir zona - bir qiymət" prinsipinə əsaslanan rominq xidməti dünyanın 165-dən artıq ölkəsini əhatə edir. Mobil operatorun rominq xidməti haqqında ətraflı məlumatı buradan öyrənə bilərsiniz: www.nar.az**



# 250 min manata qədər dövlət əmlakını mənimsəmək olarmı?

## Əliməmməd Nuriyev: "Bir müddət keçdikdən sonra bu maddənin necə işləməsi məlum olacaq"

**Azərbaycanda dövlət əmlakının mənimsənilməsi ilə bağlı yeni cəzalar tətbiq olunacaq. Bununla bağlı Cinayət Məcəlləsinə yeni 308-1 maddəsinin əlavə edilməsi də təklif olunur.**

Maddəyə görə, dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədən kənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə halına görə 8000 manatdan 10 000 manata qədər cərimə ediləcək, yaxud 3 ilə qədər azadlıqdan məhrumetmə cəzası veriləcək.

Eyni hərəkətlər külli miqdarda vəsaitlə olduqda 3 ildən 6 ilə qədər azadlıqdan məhrumetmə cəzası tətbiq olunacaq. Külli miqdarda vəsait isə 250 min manat və daha çox məbləğ nəzərdə tutulub.

*250 min manata qədər dövlət əmlakını mənimsəyənə yüngül cəzanın verilməsi nə dərəcədə doğrudur?*

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **hüquqşünas Əliməmməd Nuriyev** bildirib ki, dövlət əmlakının mənimsənilməsi ilə bağlı ayrıca bir maddənin Cinayət Məcəlləsinə daxil edilməsi çox əhəmiyyətli məsələdir: "Hazırda təəssüf ki, bir sıra hallarda müxtəlif məmurlar tərəfindən dövlət əmlakının mənimsənilməsi üçün qeyri-qanuni fəaliyyətlərə yol verilir. Artıq bunun birbaşa korrupsiya əleyhinə cinayətlər səhifəsinə daxil edilməsi ilə korrupsiya əməli olması faktına birmənalı yanaşılır. Sanksiyalara gəlincə isə nə zaman ki, maddi zərər var, həmin yerdə maddi sanksiyaların tətbiq edilməsi daha məqsədə uyğundur. Belə olan təqdirdə, birincisi həmin şəxslərin verdikləri zərər dövlətə qaytarılır, ikincisi üzərilərinə əlavə maddi öhdəliklər qoyulur. Bu hal isə onları gələcəkdə bu tipli hərəkətlər etməkdən çəkindirə bilər. Çünki bir çox şəxslər müəyyən müddət azadlıqdan məhrum edildikdən sonra, zərərin ödənilməsi üçün addım atmırlar. İndiki halda həm dəymiş zərərin ödənilməsi, həm də əlavə olaraq maddi sanksiyaların tətbiq edilməsi müsbət və vacib haldır. 250 mindən aşağı olan məbləğdə vəsaiti mənimsəyənlər də 8-10 min arası cərimə olunurlar. Həmçinin onlar da dəymiş zərəri tam ödəyirlər. Şübhəsiz, bir müddət keçdikdən sonra bu maddənin necə işləməsi məlum olacaq. Əgər doğrudan da praktika 250 min-dən az dövlət əmlakını mənimsəmə halları çox olacaqsa, şübhəsiz ki, o zaman sanksiyanın da artırılması lazım olacaq. Lakin hələ ki ilkin hazırda nəzərdə tutulan sanksiyalara da normal baxmaq olar".

❑ Əli RAİS

YENİ MÜSAVAT
Son səhifə
N 62 (6383) 18 mart 2016



## Çox düşünməyin, yaddaşınız zəifləyəcək

İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanların yaddaşı zəif olur. Bu adamlar digərləri ilə müqayisədə daha tez depressiyaya düşürlər. Aparılan təcrübələr zamanı elm adamları insanların hansısa bir mövzuda qərar verərkən nə qədər düşündüyü ilə bağlı beyinin hansı hissəsinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin düşüncə ilə bağlı hissəsi sayılan ön hissədə daha çox hüceyrələr var. Qərarları və həyat haqda dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrində hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.



## Oğurluğa girdiyi evdə yatıb qaldı...

Onu dünyanın ən qəribə oğrularından biri adlandırırlar. ABŞ-da ağlasığmaz bir oğurluq hadisəsi yaşanıb. ABŞ-ın Florida əyalətində oğurluq üçün girdiyi evdə içi qiymətli əşyalarla dolu torbanı qucaqlayıb yuxuya gedən 29 yaşındakı Dion Davis, gündəm mövzusu olub. Evə gələn xidmətçi qadın oğurladığı qiymətli əşyalarla yatan şəxsi gördükdə əvvəl şok yaşayıb, daha sonra vəziyyəti yerli polisə bildirib.

Davis 10 min dollar ödədiyi üçün barəsində həbslə bağlı olmayan qərar çıxarılıb.

# Ağır çantalar xəstəlik yaradır

**Ağır və böyük çantalar qadınlarda bel əyriliyi yaradır. Gündəlik həyatda qadınların istifadə etdiyi böyük və ağır çantalar onların görünüşünə təsirsiz ötüşmür. Belə ki, xüsusilə son illərin dəbi olan böyük çantalara üstünlük verən xanımlarda bel ağrıları yaranır.**



Mütəxəssislər qeyd edirlər ki, böyük və ağır çanta daşımaq, gərgin iş həyatı, ev işləri, həmçinin stress də bu ağrıları artırır. Hazırda dünyada gənc qadınların təxminən 20 faizi bu xəstəlikdən əziyyət çəkir və bunun səbəbkarı ağır və böyük çantalardır.

Mütəxəssislər qeyd edir ki, ağır çantaların yaratdığı fəsadlar təkcə ağrılarla kifayətlənmir. Bu, sonradan xanımlarda görünə biləcək bel əyrilikləri də yaradır. Həmçinin onurğa xəstəliyi, hərəkət ritminin dəyişməsi, vaxtından əvvəl bel bükülməsi kimi fəsadların səbəbi də ağır çantalardır.

# Yuxusuzluq öldürür

**Bir-birinin ardınca yuxusuz qalmaq şəkərə, eyni zamanda erkən qocalmaya səbəb olur. Mütəxəssislər apardıqları araşdırma nəticəsində belə qənaətə gəlib. 1741 nəfər qadın və kişi üzərində 14 il boyunca aparılan aparılan araşdırmanın nəticəsinə görə, gündə 6 saatdan az yatanlarda ölüm riski normadan yüksəkdir.**

Onlar müəyyən ediblər ki, bir neçə gün yuxusuz qalmaq qandakı şəkərin miqdarını sürətlə artırır. Şəkərli diabetin yaranmasına səbəb bədəndəki insulinin hüceyrələrə nəqli zamanı yaranan pozğunluq nəticəsində qlükozanın qanda yığılması və bu zaman mədəaltı vəzin normadan artıq insulin ifraz etməsidir.

Yuxusuz qalmaq, eyni zamanda insan beyninin erkən qocalmasına da gətirib çıxarır. Yata bilməyən beyin gücləndirilmiş iş rejimi ilə işləyir ki, bu da onu vaxtından əvvəl yorur və beyində qısa müddətdə çox sayda neyron ölür. Üstəlik proses təkcə qocalma ilə yekunlaşmır. Bundan başqa yaddaş zəifləyir, insan qərar qəbuletmə bacarığını itirir, aqressivləşir. Hətta ifrat yuxusuzluq ölümlə də nəticələnə bilər.





## Yaraşıqlı kişilər kobud olurmuş...

**Aparılan elmi araşdırmaların nəticəsinə görə, bir çox gözəl qadınlar çirkin kişilərlə münasibətə üstünlük verir. Bunun səbəblərindən biri odur ki, yaraşıqlı bir kişi qadınlara qarşı nəzakətli, mərd və anlayışlı olmaq baxımından digər kişilərdən çox geridədir. Qadınlar isə bunu çox yaxşı hiss edir. Kişilər gözləri ilə sevdiyi halda, qadınlar hisslərinə güvənməyə üstünlük verir. Nəticədə bütün kişilər gözəl qadın axtararkən, qadınlar qüsurlarını "yaraşıqlı olmaq" avantajının arxasına gizlətməyən kişiləri seçir. "Qarşı cinsdə nə axtardığını" isə onlar ancaq 30 yaşında başa düşür. Əgər 30 yaşındakı bir qadının yaraşıqlı bir kişi ilə deyil, çirkin biri ilə görüşürsə, həmin qadını təbrik etmək lazımdır. Çünki ancaq ağıllı qadınlar bu cür seçim edir.**




**QOÇ** - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanların fikirlərinə əhəmiyyətsiz yanaşın. Gələcəyə tam ümidlə baxın.

**BUĞA** - Bu təqvimdə uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Çünki ayın sonuna qədər bundan səmərəli vaxt olmayacaq. Təmir-quraşdırma işləri üçün də əhəmiyyətli gündür.

**ƏKİZLƏR** - Həftə ərzində yaranmış maliyyə problemlərinizi aradan qaldırmaq asanlaşmaqdadır. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz. Qidanıza fikir verin.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.

**ŞİR** - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.

**QIZ** - Qonaq getmək üçün günün ikinci yarısı münasibdir. Amma hər hansı fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Ailə münasibətlərində obyektiv addımlar atın.

**TƏRƏZİ** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**ƏQRƏB** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**OXATAN** - Mart ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə artım da mümkündür.

**OĞLAQ** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Axşama doğru qazanmaq ehtimalınız var.

**SUTÖKƏN** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki qarşıdakı günlərdə bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri və mövqenizi konkretləşdirməlisiniz.

**BALIQLAR** - Bürcünüzün ən uğurlu məqamlarını yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Rəqabəti sevənlər kök olur



**İnsanın xarakteri onun çəkisi arasında əlaqə var. 50 ildən çox müddətdə aparılan yoxlamalar nəticəsində bu qənaətə gəlinib. ABŞ-dakı Milli Yaşlanma İnstitutunun 1988 insan üzərində apardığı araşdırma xarakter ilə bədən kütlə indeksi arasında əlaqə olduğu üzə çıxıb.**

Çətinliklə məmnun qalanlar, rəqabəti sevənlər, əsəbi və ictimai dəyərlərə çox qiymət verməyən insanların bədən kütlə indeksinin normadan çox olduğu bəlli olub. Əsəbi insanlar həyatları boyu çəkilərinin artıb-azalması ilə bağlı problemlər yaşayırlar və köklüyə meylli olurlar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750